# NÖVBƏTİ RAUND İSTANBULDA OLDU



Türkiyənin İstanbul şəhərində "3+3" regional platformasının nazirlər toplantısı keçirilib. "Report" xəbər verir ki, iclasda Azərbaycanı xarici işlər naziri Ceyhun Bayramov təmsil edib.

Ceyhun Bayramov görüş zamanı bildirib ki, mövcud çağırışlarla mübarizədə ölkəmiz regional əməkdaşlığı və bu kimi formatlar çərçivəsində məsləhətləşmələrə xüsusi əhəmiyyət verir.

SƏHİFƏ 2-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

19 OKTYABR ŞƏNBƏ 2024 I 40 (4191) Qiyməti - 40 qəpik www.kaspi.az



## MƏNTİQSİZ VƏ İKİÜZLÜ BAXIŞ

Gürcüstan hökuməti də Azərbaycanda olduğu kimi gerçək müstəqil dövlət qurulması uğrunda cəhdlər göstərir və mürəkkəb dövrdən keçir. Amma kollektiv Qərb bu cəhdlərə qarşı çıxır və cığallıq edir.

SƏHİFƏ 4-də



## "OĞLUMUN ARXASINCA ÖZÜM GETDİM..."

Şəhid anası Lətafət Budaqova: "Atasının ili çıxmamış oğlum şəhid oldu. Gözümün ağı-qarası bircə balam idi. Vətən torpaqlarının azadlığı uğrunda şəhidlik zirvəsinə ucaldı. Təsəllim odur ki, Vətənin azadlığı üçün şəhid olub..."

SƏHİFƏ 6-da



## SU GƏLƏCƏYİ İLƏ BAĞLI BƏDBİN PROQNOZLAR

Azərbaycan su resursları baxımından həssas ölkələr sırasındadır. Ölkənin su ehtiyatları Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə məhduddur. Lazımı addımlar atılmazsa, 2050-ci ilədək su resursları daha da azalacaq.

SƏHİFƏ 11-də

## EVDƏN ÇIXMAQLA BAĞLI HƏR HANSI MƏHDUDİYYƏT OLMAYACAQ




# BAKI COP29-A HAZIRLAŞIR

Tədbirin keçiriləcəyi günlərlə bağlı bütün incəliklər nəzərə alınıb. COP29-un yeni bir model kimi təqdim edilməsi nəzərdə tutulur. Vətəndaşların evlərindən çıxmaları ilə bağlı hər hansı məhdudiyyət də tətbiq edilməyəcək.

**BÜTÜN İNCƏLİKLƏR NƏZƏRƏ ALINACAQ**

COP29-un keçiriləcəyi sahələrdəki sıxlıqdan başlayaraq nəqliyyat sisteminin əlçatanlığına qədər hər şey nəzərə alınıb. COP29 yeni bir model kimi ictimaiyyətə təqdim ediləcək. Əvvəllər eşitmə və nitq məhdudiyyəti olan insanlar üçün nəzərə alınmayan bir çox məsələlər üzərində işlər görülür. Məsələn, müəyyən zallarda surdo-tərcüməçilərin olması, görmə məhdudiyyəti olan insanlar üçün daktil xəritələrin və brayl əlifbası ilə yazılmış bukletlərin paylanılması kimi sosial xidmətlər əlavə olunub.

SƏHİFƏ 2-də

"Aktyorluq ömür qısaldan sənətdir"

## "BİR DƏ GÖRDÜLƏR REPERTUARDAYAM..."

Xalq artisti Cəfər Namiq Kamal gələn il 75 yaşını qeyd edəcək. Artıq 50 ildən çoxdur ki, peşəkar səhnədədir. Akademik Milli Dram Teatrının tanınmış aktyoru "Kaspi"yə müsahibəsində sənətinin özünəməxsus sirlərini açdı.



Hər kəsin öz hündürlüyü var. Onu tullana bilənlər teatrda işləməlidir. Yoxsa bu akademik teatr yox, özfəaliyyət dərnəyi olar. Ona görə də bu teatra hansısa aktyoru və rejissoru dəvət edəndə fikirləşmə-lidirlər.

SƏHİFƏ 8-9-da



## OTUZ İLLİK SUSQUNLUĞU POZANLAR

"Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı Azərbaycan-Aİ əməkdaşlığında geriləmə olarsa, bu, təəssüf hissi doğurar. Ümidvaram ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər Ermənistan-Azərbaycan gündəliyindən asılı olmayaraq inkişaf edəcək".

SƏHİFƏ 3-də




## SIĞORTA ŞİRKƏTLƏRİNİN İKİLİ OYUNU

Son vaxtlar sığorta şirkətlərinin onlayn sistemi vətəndaşlar üçün fəaliyyət göstərmir. Ekspertlərin fikrincə, şirkətlər bu addımı bilərəkdən atırlar ki, bəzi avtomobilləri sığortalamasınlar.

SƏHİFƏ 7-də



## "İBLİS VƏ..."NİN PREMYERASINDAN QEYDLƏR

"İblis" pyesinin motivləri əsasında Mehriban Ələkbərzadənin quruluşunda yenidən həyat qazanan "İblis və..." Azərbaycan teatr tarixi üçün yeni hadisə idi. Tamaşa klassika və müasirliyin uğurlu sintezi kimi də dəyərləndirilə bilər.

SƏHİFƏ 15-də



Fransa problemlərin məngənəsində

SƏHİFƏ 5-də



Sürürlər, atıb gedirlər

SƏHİFƏ 10-da



Say azalır, qiymət artır

SƏHİFƏ 13-də



Düşündürən cərimə artımı

SƏHİFƏ 14-də



Montellalı Türkiyə yığmasının ilkləri

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi






# Növbəti raund İstanbulda oldu

Türkiyənin İstanbul şəhərində “3+3” regional platformasının nazirlər toplantısı keçirilib. “Report” xəbər verir ki, iclasda Azərbaycanı xarici işlər naziri Ceyhun Bayramov təmsil edib. İclasda Türkiyə, Rusiya, İran və Ermənistanın xarici işlər nazirləri Hakan Fidan, Sergey Lavrov, Abbas Ərakçi və Ararat Mirzoyan da iştirak ediblər.

Ceyhun Bayramov görüş zamanı bildirib ki, mövcud çağırışlarla mübarizədə ölkəmiz regional əməkdaşlıq və bu kimi formatlar çərçivəsində məsləhətləşmələrə xüsusi əhəmiyyət verir.

Xarici qüvvələrin regionda öz təhlükəli gündəlikləri, o cümlədən ziddiyyətli hərbiləşdirmə ilə məşğul olmaqla, geosiyasi eskalasiya və bölücü xətləri regionumuza proyeksiya cəhdlərini artırması fonunda regional fəaliyyət və dialoqun daha da vacib olduğu vurğulanıb.

Keçmiş münaqişənin yekunlaşması, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası ilə regional əməkdaşlıq üçün açılan yeni imkanların fonunda Azərbaycanın Ermənistanla dayanıqlı sülh quruculuğu prosesinin davam etdirilməsi və irəlilədilməsinə dair qətiyyəti bir daha təsdiq olunub.

Sülh prosesinin qarşısında duran maneələrin aradan qaldırılmasının, xüsusilə Ermənistanın təcavüz və işğalının bir daha təkrarlanmayacağı və sülhün daxili siyasi və hüquqi vəziyyətdən asılı olmayacağına zəmanət verən zəruri konstitusiya dəyişikliklərinin vacibliyi vurğulanıb. Mövcud problemlərin gözardı edilməsi ilə dayanıqlı sülh quruculuğunu təxirə salan “yarımçıq sülh”ün Ermənistan tərəfindən təbliğatının “gizli gündəm”in mövcudluğuna dair sual doğurduğu qeyd olunub.

Toplantı çərçivəsində Türkiyənin İstanbul şəhərində Sülh və Dövlətlərarası Münasibətlərin qurulması haqqında Müqavilə üzrə Azərbaycan-Ermənistan danışıqlarının növbəti raundu da keçirilib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin “X” hesabında məlumat verilib. Qeyd olunub ki, görüşdə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və ermənistanlı həmkarı Ararat Mirzoyan iştirak ediblər.




Foto: Arif Quluzadə/Global Media Group

Tədbirin keçiriləcəyi günlərlə bağlı bütün incəliklər nəzərə alınıb. COP29-un yeni bir model kimi ictimaiyyətə təqdim edilməsi nəzərdə tutulur. Tədbir günlərində vətəndaşların evlərindən çıxmaları ilə bağlı hər hansı məhdudiyyət də tətbiq edilməyəcək.

# BAKI COP29-A HAZIRLAŞIR

FUAD ABASOĞLU

Gələn ay Bakıda keçirilməsi planlaşdırılan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı olan COP29-a hazırlıq prosesi davam edir.

Prezident İlham Əliyev də oktyabrın 17-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub. Qeyd edilib ki, ərazidə icra edilən tikinti-quraşdırma işləri yekun tamamlanma mərhələsindədir. Hazırlıq işlərinin sürətlə davam etdiyi nəzərə alınaraq tədbir məkanının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) tələb olunan tarixdə təhvil verilməsi planlaşdırılır.

Xatırladaq ki, oktyabrın 18-də media nümayəndələri də Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olublar.

### COP29 YENİ BİR MODEL KİMİ

SƏTƏM Departamentinin Müyəssərlik sektorunun müdiri Kamal Məmmədov jurnalistlərə açıqlamasında deyib ki, COP29-un keçiriləcəyi sahələrdəki sıxlıqdan başlayaraq nəqliyyat sisteminin əlçatanlığına qədər hər şey nəzərə alınıb. O bildirib ki, COP29 yeni bir model kimi ictimaiyyətə təqdim ediləcək: “Əvvəllər eşitmə və nitq məhdudiyyəti olan insanlar üçün nəzərə alınmayan bir çox məsələlər üzərində işlər görülür. Məsələn, müəyyən zallarda surdo-tərcüməçilərin olması, görmə məhdudiyyəti olan insanlar üçün daktil xəritələrin və brayl əlifbası ilə yazılmış bukletlərin paylanılması kimi sosial xidmətlər əlavə olunub”.



### QEYDİYYAT DAVAM EDİR

COP29-la bağlı qeydiyyat prosesi də davam edir. Bu barədə məlumat verən COP29-da Media əməliyyatları üzrə direktor Pirim Pirimov deyib ki, indiyədək tədbiri işıqlandırmaq üçün 2 700 media nümayəndəsi qeydiyyatdan keçib. Onun sözlərinə görə, Media Mərkəzi artıq tam olaraq hazır vəziyyətdədir. Eyni anda çalışmaq üçün 1200 media nümayəndəsi üçün şərait yaradılıb: “Xırda detallar var ki, üzərində işlər gedir. Media, televiziya və radio, yazılı mətbuat üçün iş otaqları ayrılıb. Tv və radio yayımçıları üçün 330 iş, 300 yazı masası ayrılıb”.

### “COP29 ZOLAQLARI, ƏSLİNDƏ, AVTOBUS ZOLAQLARIDIR”

COP29 Əməliyyat Şirkəti Nəqliyyat Departamentinin rəhbəri Orxan Mahmudlu COP29 zolaqlarından hansı nəqliyyat vasitələrinin istifadə edə biləcəyini açıqlayıb:

“COP29 zolaqları, əslində, avtobus zolaqlarıdır. Həmin zolaqların çəkilməsi onsuz da, nəzərdə tutulmuşdu. Sadəcə, COP29 tədbirinə görə bu proses daha da sürətləndirildi. COP29 zolaqları hansısa meyar və status baxımından avtobus zolaqlarından fərqlənmir. Cərimələnmə mexanizmi və digər avtomobillərin bu zolaqlardan istifadə etdiyi zaman tətbiq olunan qaydalar eynidir. Bu zolaqlarda noyabr ayından etibarən, COP29 üçün nəzərdə tutulan avtobusların, xüsusi taksilərin və avtomobillərin hərəkəti nəzərdə tutulur. Həmin zolaqlardan istifadə üçün xüsusi icazə vərəqələri və stikerlər tələb olunur”.

### EVDƏN ÇIXMAQLA BAĞLI HƏR HANSI MƏHDUDİYYƏT OLMAYACAQ

Qeyd edək ki, paytaxt sakinlərini ən çox maraqlandıran məqamlardan biri də COP29 ərəfəsində məhdudiyyətlərin tətbiq olunacağına dair iddialardır. Bu məsələyə COP29-un baş icraçı direktoru Elnur Soltanov aydınlıq gətirilib. Onun sözlərinə görə, COP29-un keçirildiyi zaman Bakı sakinlərinə evdən çıxmaqla bağlı hər hansı bir məhdudiyyət olmayacaq. “COP29 müddətində şəhər sakinlərinin evdən çıxması ilə bağlı səlahiyyətli qurumlar tərəfindən hər hansı məhdudiyyət və qadağaların və ya SMS icazələrin tətbiqi nəzərdə tutulmur”, - o deyib. E.Soltanovun sözlərinə görə, bu barədə yayılan məlumat dezinformasiyadır.

# OTUZ İLLİK SUSQUNLUĞU POZANLAR



Prezident İlham Əliyev: “Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı Azərbaycan-Aİ əməkdaşlığında geriləmə olarsa, bu, təəssüf hissi doğurar. Ümidvaram ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər Ermənistan-Azərbaycan gündəliyindən asılı olmayaraq inkişaf edəcək”.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsi 30 illik işğal dövründə etinasız davranan, özünü dünya siyasətinin məhək daşı sayan bir çox siyasi mərkəzlərin susqunluğunu da pozmuş oldu. Dəfələrlə ədalətin bərpası, işğal faktına son qoyulması və beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsinə dair Bakının ünvanladığı müraciətlərə susqunluqla cavab verən həmin mərkəzlər indi fəallıq nümayiş etdirməyə başlayıblar. Lakin bu fəallıq daha çox birtərəfli, haqqın və ədalətin önünə sipər çəkmək və söndürülən separatizm ocağını yenidən alovlandırmaq məqsədinə xidmət edir. Bu ikili standartlar özünü Avropa İttifaqının (Aİ) bəzi siyasi liderlərinin və alt qurumlarının fəaliyyətində də büruzə verir. Artıq rəsmi Bakı ortaya qoyulan bu mövqenin yanlış olduğunu açıq şəkildə bildirir, xoşagəlməz nəticələr doğuracağına dair xəbərdarlıq da edir.

### BRÜSSEL ÜÇÜN YAXŞI OLMAYAN NÜMUNƏ

Prezident İlham Əliyev oktyabrın 14-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən bu məsələyə xüsusi olaraq toxunub.

Dövlət başçısı bildirib ki, Aİ əvvəllər olduğu kimi, Ermənistan-Azərbaycan sülh məsələsində neytrallığı saxlamalıdır. Belə ki, Aİ torpaqlarımızın işğalı dövründə bu məsələdə heç vaxt fəal olmayıb. O dövrdə Azərbaycanın Aİ-yə və Avropa institutlarına xeyli sayda müraciətlərinə “bu məsələ ilə Minsk qrupu məşğul olur, Aİ-nin bu məsələyə aidiyyəti yoxdur” cavabı verilib. Hazırda isə Aİ-nin bu məsələyə fəal cəlb olunduğu görünür. Lakin əfsuslar olsun ki, Brüsseldə, Aİ-nin mənzil-qərargahında bəziləri tərəfkeşlik edirlər. Bu, qeyri-məhsuldar bir mövqedir, yalnız etimadsızlıq yaradır və Aİ-ni normallaşma prosesindən təcrid edir: “Əgər mümkündürsə, mən belə bir tövsiyə edərdim ki, Avropa İttifaqı və Azərbaycan əməkdaşlığının davam etdirilməsi naminə Fransanın yolu ilə gedilməsin, özlərini Fransanın təsirinə salmasınlar. Çünki Fransanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması ilə bağlı siyasəti destruktiv siyasət olub və tamamilə bu cür də qalmaqdadır”.

Prezidentin bəyanatından da göründüyü kimi, rəsmi Bakı Aİ daxilində anti-Azərbaycan fəaliyyətin əsas mənbəyinin kim, yaxud hansı dövlət olduğunu yaxşı bilir. Artıq minimum səviyyəyə enən Azərbaycan-Fransa ikitərəfli əlaqələrini Brüsselə nümunə göstərir. Təbii ki, bu çağırışdan doğru nəticəni çıxarıb-çıxarmamaq Brüsselin biləcəyi işdir.

## Aİ-YƏ ETİMADI HEÇƏ ENDİRƏN MİSSİYA



Aİ-nin Azərbaycanın tarixi zəfərindən dərhal sonra Cənubi Qafqazla bağlı fəallığını heçə endirən, onun ambisiyalarını çılpaqlığı ilə ortaya qoyan və etimadına güclü zərbə vuran digər bir amil Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, “binokl diplomatiyası”dır. Söhbət ilkin mərhələdə say və müddət baxımından Azərbaycanla da razılaşdırılan, daha sonra isə bu razılaşmaları heçə sayaraq Qərbin agentura şəbəkəsinə çevrilmiş sözdə müşahidə missiyasından gedir. Belçika səfiri ilə görüşdə dövlət başçısı bu məsələyə də toxunub. “Missiya üzvlərinin davranışı, necə deyərlər, “binokl diplomatiyası” heç cür qəbuledilməz və hər hansı bir normal siyasi mədəniyyət standartlarından kənar idi”, - Prezident bildirib.

### FRANSIZ VƏ PSEVDOFRANSIZLAR

Qeyd edək ki, Azərbaycan hazırda dünyada baş verən kataklizmlər fonunda Aİ üçün alternativ enerji mənbəyidir. Həm də Qərbdən Şərqə uzanan dəhlizin açarıdır. Məhz bu səbəbdən Brüsseldə Azərbaycanı etibarlı, strateji tərəfdaş adlandırırlar. Hətta energetika sahəsində strateji tərəfdaşlıq haqqında saziş də imzalanıb. Lakin bu gün müşahidə etdiklərimiz Aİ adına strateji tərəfdaşlıqdan doğan öhdəliklərə sığmır. Necə deyərlər, hər şey yalnız sözdə gözəldir. Başda Fransa olmaqla, Niderland, Lüksemburq kimi psevdofransız olan dövlətlər, Avropa Parlamenti elə ay yoxdur ki, anti-Azərbaycan qətnaməsi qəbul etməsin, müzakirələr aparmasın, Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü və suverenliyi şübhə altına alınmasın.

### BRÜSSELİN NƏZƏRƏ ALMALI OLDUĞU VACİB MƏQAM

Lakin rəsmi Bakı istər 30 illik işğal dövründə, istərsə də Vətən müharibəsi zamanı və ondan sonrakı proseslərdə nümayiş etdirdiyi siyasi soyuqqanlılığını qoruyur. Hər bir məqama nəticəyönümlü yanaşaraq hər şeydən əvvəl özünün milli maraqlarını önə çəkir, müstəqil siyasətini davam etdirir. Azərbaycan Aİ-nin tək Fransa, Lüksemburq, yaxud Niderland olmadığını gözəl bilir. Təsadüfi deyil ki, Bakı ilə Aİ-nin aparıcı üzvləri arasında ayrı-ayrılıqda strateji tərəfdaşlıq haqqında sazişlər imzalanıb. Brüssellə ikitərəfli münasibətlərdə fransız amili ürək bulandırsa da, bundan artığına qadir deyil. Prezident İlham Əliyevin də bildirdiyi kimi, Azərbaycan-Aİ əməkdaşlığı geniş gündəliyə malikdir və enerji, nəqliyyat, yaşıl enerji, ticarət sahələrini əhatə edir. Aİ Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Lakin Brüsselin nəzərə almalı olduğu çox vacib bir məqam var. Onu da Azərbaycan Prezidenti qarşı tərəfin diqqətinə çatdırıb.

“Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı Azərbaycan-Aİ əməkdaşlığında geriləmə olarsa, bu, təəssüf hissi doğurar. Ümidvaram ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər Ermənistan-Azərbaycan gündəliyindən asılı olmayaraq inkişaf edəcək”, - deyə Prezident İlham Əliyev bildirib.

Gürcüstanda keçiriləcək parlament seçkiləri region üçün xüsusi əhəmiyyətə malikdir

# MƏNTİQSİZ VƏ İKİÜZLÜ BAXIŞ



Gürcüstan hökuməti də Azərbaycanda olduğu kimi gerçək müstəqil dövlət qurulması uğrunda cəhdlər göstərir və mürəkkəb dövrdən keçir. Amma kollektiv Qərb bu cəhdlərə qarşı çıxır və cığallıq edir.



RÜSTƏM QARAXANLI

Oktyabrın 26-da Gürcüstanda keçiriləcək parlament seçkiləri tək gürcü xalqı və dövlətçiliyi üçün deyil, bütöv region kontekstində əlahiddə əhəmiyyətə malikdir. Seçki kampaniyası və ümumiyyətlə, seçkilərə gedən yol kollektiv Qərbin Tbilisinin müstəqil dövlətçilik təşəbbüslərinə qarşı görünməmiş total təzyiqi şəraitində keçir. Vaşinqtonda və Brüsseldə Gürcüstan hökumətinin tarazlaşdırma və güc mərkəzlərindən bərabər şəkildə məsafə saxlama siyasətini "Rusiyaya meyillilik" kimi qiymətləndirirlər.

### GÜRCÜ DÖVLƏTÇİLİYİNƏ QARŞI TƏHDİDLƏR

Bu narrativin ilkin işartıları Rusiya-Ukrayna müharibəsi başlayan gündən büruzə verilir. Nədənsə Qərbdə hesab edirlər ki, rəsmi Tbilisi gürcü xalqı ayaq altında qalsa belə, Rusiyaya qarşı ikinci cəbhəni açmalıdır. Halbuki Kiyevlə Moskva arasındakı ziddiyyətlərin gürcü xalqına böyük ölçüdə heç bir dəxli yoxdur. ABŞ-da və Avropada bu düşüncədədirlər ki, əgər Rusiya həm Ukraynanın bir hissəsini, həm də Gürcüstanda Abxaziya və Cənubi Osetiyanı ilhaq edibsə, deməli, Tbilisi və Kiyev səylərini birləşdirməlidirlər. Bu paradiqma Qərbin dünyadakı proseslərə baxışının çürüklüyünün göstəricisidir. Tbilisi və Kiyev mübarizələrində haqlıdırlarsa, - bu, əslində həqiqətən də belədir, - onda eyni yanaşma niyə 30 il ərzində Azərbaycanın öz torpaqlarının bütövlüyü və erməni işğalına qarşı mübarizəsinə münasibətdə də tətbiq olunmurdu? İndinin özündə də Qərbin bəzi paytaxtlarında Azərbaycanın tarixi ədalətsizliyə son qoymasını həzm edə bilməyənlər var. Ukraynadakı müharibənin ilk anından etibarən ABŞ-nin və Aİ-nin Gürcüstana qarşı basqıları seçkilər yaxınlaşdıqca daha aşkar və qeyri-etik obraz almağa başladı. Əvvəl ABŞ Tbilisiyə bütün yardım layihələrini dayandırdı, sonra eyni addımı Aİ və onun ayrı-ayrı üzvləri də atdılar. Avropa Parlamenti Gürcüstana qarşı ədalətsiz və qərəzli qətnamə qəbul edərək onu "demokratik dəyərlərdən uzaqlaşmaqda" suçladı.

### GÜRCÜSTAN HAKİMİYYƏTİNƏ İNANMAQ İSTƏMİRLƏR

"Demokratik dəyərlərdən uzaqlaşma" dedikdə Avropa Gürcüstan parlamenti tərəfindən qəbul olunan və LGBT təbliğatını qadağan edən, habelə xaricdən QHT-lərə ayrılan maliyyəyə nəzarəti sanksiyalaşdıran qanunları bəhanə gətirir. Gürcüstan hakimiyyəti avropalıları heç cür inandıra bilmir ki, onların həyat tərzi tarixi-dini köklərinə bağlı gürcü cəmiyyəti üçün qəbuledilməzdir. Bundan əlavə, özünə hörmət qoyan dövlətdə xaricdən edilən və heç də həmişə səmimi məramlı olmayan maliyyə dəstəyinin başıpozuq dövriyyəsi ilə razı ola bilməzlər.

Tbilisiyə bu platformada təzyiqlərin nəticəsizliyini görən Qərb, xüsusilə də Parisin dəstək verdiyi Aİ "ağır artilleriya"sını işə saldı - prosesə Gürcüstan prezidenti, əvvəllər Fransa vətəndaşı olmuş Salome Zurabişvili qoşuldu. Zurabişvili son prezident seçkilərində nə qədər paradoksal olsa da, hökumətin namizədi olub və gərgin mübarizədə eks-prezident Saakaşvilinin nümayəndəsinə qalib gəlib. Sonra tədricən müxalifətə meyllənməsi, hətta seçkilərdə mübarizə apardığı Saakaşvilinin azadlığı uğrunda mübarizəyə qoşulması, indi isə gürcü hökumətini rusiyapərəstlikdə suçlaması Qərbin Gürcüstanda illər əvvəl əsasını qoyduğu planın mövcudluğunu bir daha təsdiq edir.

## REGİONAL SABİTLİYİN MÜHÜM BƏNDİ

Gürcüstandakı seçkilər bütün region, ələlxüsus da Azərbaycan üçün çox vacibdir. Bakı ilə Tbilisinin bölgədəki siyasi və iqtisadi kooperasiyası qlobal layihələrin reallığa çevrilməsi üçün kilid əhəmiyyət daşıyır. Bu nümunəvi işbirliyi nəticəsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, Cənub qaz dəhlizi və sair bu kimi qlobal, transmilli layihələr həyata vəsiqə qazanıb. Rəsmi Bakı Gürcüstandakı bütün hökumətlərlə məhsuldar işbirliyində olub, çünki bu, hər iki xalqın maraqlarından irəli gəlir. Bununla belə, Cənubi Qafqaz heç vaxt indiki kimi geosiyasi rüzgarların təsiri altında olmayıb. Ona görə də Azərbaycan gürcü xalqının davamlı rifahı, gürcü dövlətçiliyinin möhkəmlənməsi və inkişafında olduqca maraqlıdır.

Əgər Bakı bölgənin siyasi və iqtisadi başlanğıclarının mərkəzi, müəllifi və memarı rolunda çıxış edirsə, Tbilisi bu təşəbbüslərin dünya bazarlarına tranzitinin kritik bəndi, əsas ötürücüsüdür.



## SEÇKİLƏRİN GEOSİYASİ ƏHƏMİYYƏTİ

Gürcüstan hökuməti də Azərbaycanda olduğu kimi gerçək müstəqil dövlət qurulması uğrunda cəhdlər göstərir. Bu, hər bir özünə hörmət edən xalqın istəyi, dövlətin hədəfidir. Dizayn etdiyi və əksər hallarda xalqların və ölkələrin dəyərləri və tarixinə zidd olan çərçivələrdən kənara çıxan istənilən müstəqillik cəhdləri Qərb tərəfindən qəbul edilmir və boğulmağa çalışılır. Ermənistandakı marionet rejim vasitəsilə bölgəyə nəzarət etməyə çalışan Qərb, onun əsas təmsilçisi Fransa Gürcüstandakı təzyiq rıçaqlarının gündən-günə zəifləməsindən ciddi narahatlıq keçirirlər.

Gürcüstan bölgədə ilk dövlətdir ki, Çinlə strateji müttəfiqlik haqqında sənəd imzalayıb. Tbilisi bununla seçimini ortaya qoyub nə Qərb, nə də Rusiya. Pekinlə eyniməzmunlu anlaşmaya az öncə Bakı da nail olub. Bölgənin gələcək rifah arxitekturasının təminatçısı olacaq logistik layihələrin başlanma nöqtəsi Çindir. Dünyanın iqtisadi mərkəzi Qərbdən Şərqə, Asiyaya doğru yerdəyişmə edir. "Qlobal Cənub"un imkanları və çəkisi durmadan artır. Bu baxımdan, Gürcüstanın seçimi praqmatik və təbii səbəblərə malikdir. Gürcü xalqının Qərbin Rusiya ilə ziddiyyətlərinin elementinə çevrilmək kimi lüksü yoxdur. Oktyabrın 26-da gürcülər parlamentə məhz bu platformada səs verəcəklər.



# Fransa problemlərin MƏNGƏNƏSİNDƏ

Fransada yeni hökumətin miqrantlara qarşı həyata keçirdiyi sərt tədbirlər etirazlara səbəb olub. Bu, yeni hökumət daxilində də çatlar yaradıb. Prezident Emmanuel Makron tələsik bəyanat vermək məcburiyyətində qalıb.





AZƏR NURİYEV

Sosial problemlərlə yanaşı, miqrasiya, ksenofobiya, irqi ayrı-seçkilik Fransanın üzləşdiyi çoxsaylı problemlərdəndir. Ölkənin yeni baş naziri bəlli olduqdan sonra bu problemlər özünü daha qabarıq göstərir. Xüsusən də miqrasiya məsələsi. Hökumət artıq oktyabr ayını qanunsuz miqrasiya ilə mübarizədə radikal tədbirlər ayı olacağını bildirib.

### QANUNSUZ MİQRANTLARIN DEPORTASİYASI SÜRƏTLƏNƏCƏK

"Darmanin" adlanan yeni qanun qeyri-qanuni miqrantların deportasiyasına nəzarəti gücləndirmək üçün tədbirləri ehtiva edir. Qanun cinayət törətmiş əcnəbilərin Fransadan deportasiyasını da nəzərdə tutur.

Miqrantlarla bağlı atılacaq sərt addımları yeni daxili işlər naziri Bruno Retayo elan edib. O, Madaqaskar yaxınlığındakı adalar qrupu olan Fransanın dənizaşırı departamenti Mayottaya Afrikadan gələn qanunsuz miqrantların deportasiyasını sürətləndirməyi əmr edib. Fransada sığınacaq axtaranlar təyyarə ilə Konqo Demokratik Respublikasına (KDR) göndəriləcəklər. Əgər bu təcrübə uğurlu olarsa, gələcəkdə ölkənin Avropa hissəsinə qanunsuz gələn hər kəsə şamil edilə bilər. Nazir bir sıra Afrika ölkələri, xüsusən də Ruanda və Burundi ilə danışıqlar aparılacağını da elan edib. Fransa üçün daha böyük problem Aralıq dənizi vasitəsilə ölkənin kontinental hissəsinə gələn qanunsuz miqrantlardır. Retayo problemi radikal şəkildə həll etmək niyyətindədir.

## "BU QANUN FRANSA ADINA MƏĞLUBİYYƏTDİR"

Bu qərarlar ölkədə hakimiyyətdən narazılığı pik həddə çatdırıb. Paytaxt Parisdə yeni qanuna qarşı etirazlar artıb. Etirazçılar prezident Emmanuel Makrondan yeni, radikal miqrasiya sənədini imzalamamağı tələb edirlər. Məlumata görə, yeni hökumət qeyri-qanuni miqrantların cəmiyyətə daxil olmasının qarşısını almaq üçün Avropa İttifaqı (Aİ) səviyyəsində daha sərt miqrasiya siyasətini təşviq etmək niyyətindədir.

Layihəyə narazılıq edənlər arasında hətta keçmiş prezident Fransua Olland da var. O bildirib ki, miqrasiya qaydalarını sərtləşdirmək üçün qəbul edilmiş qanun Fransa adına məğlubiyyətdir. "Konstitusiyaya zidd müddəalarla yeni qanun qəbul edildikdə, bu, irəliləyiş kimi qiymətləndirilə bilməz", - deyə Olland bildirib.

Narazılıqlar elə ciddi səviyyədə olub ki, Makron Fransa hakimiyyətinin miqrantlara qarşı çıxmadığına dair tələsik bəyanat vermək məcburiyyətində qalıb.

### PREZİDENTLƏ NAZİRİN GİZLİ ANLAŞMASI?

Bu, sentyabrın 19-da formalaşdırılan Mişel Barnyenin Nazirlər Kabinetində anlaşılmazlığın ilk nümunəsidir. Xatırladaq ki, yeni hökumət azlıq hökumətidir. Koalisiyanı parlamentdə deputatların sayına görə üçüncü qüvvə olan prezidentyönlü "Respublika uğrunda birlikdə" bloku və bir sıra mərkəzçi sağ fraksiyalar formalaşdırıblar. Məsələn, Retayo 2015-ci ildən respublikaçıların sıralarındadır. Ola bilsin ki, prezidentlə DİN rəhbəri arasında heç bir anlaşılmazlıq yoxdur. İstisna deyil ki, problemin miqyasını dərk edən Makron "məcburi" hökumətin əli ilə ultra-sağ xarakterli tədbirlər həyata keçirmək və eyni zamanda sol qüvvələrin tənqidindən qaçmaq istəyir. Konkret olaraq Mayottada qanunsuz miqrantlarla bağlı vəziyyət Fransanın digər yerlərindən daha pisdir. Adalar kiçikdir, Avropadan uzaqdadır, üstəlik orada özünəməxsus problemlər var. Mayottada quraqlıq səbəbindən içməli su qıtlığı yaranıb. Minlərlə qanunsuz miqrantı da su ilə təmin etmək lazımdır. Sağyönümlü "Valeurs actuelles" jurnalı yazır ki, onları artıq nə xüsusi mərkəzdə, nə də hətta əsas həbsxanada saxlamaq mümkündür. Yerli hakimiyyətin məlumatına görə, birincinin həddindən artıq dolğunluğu 245%, ikincisinin isə 151,6% təşkil edir. Ümumilikdə Fransa həbsxanaları da orta hesabla 126,4% yükləniblər.



Emmanuel Makron

### GƏLƏN İL YENİ QANUN HAZIRLANACAQ

Artan etirazlar fonunda hökumət 2025-ci ildə ölkədə yeni miqrasiya qanununun qəbul edilməsini təklif edəcək. Bu barədə hökumət sözçüsü Mod Brejon bəyan edib. 2025-ci ildə "yeni miqrasiya qanununa ehtiyac yaranacaq", - deyə yeni hökuməti təmsil edən Brejon BFMTV telekanalına bildirib. Hökumət sözçüsünün sözlərinə görə, yeni mətnə Retayonun "təhlükəli qanunsuz əcnəbilərin inzibati saxlama mərkəzlərində saxlanma müddətinin uzadılmasına kömək etmək" təklifi daxil ediləcək ki, bu da maksimum saxlanma müddətini 90 gündən 210 günə qədər artırmağa imkan verəcək. Brejon həmçinin qeyd edib ki, növbəti mətnə işçi qüvvəsinin kəskin çatışmazlığı olan regionlarda qanunsuz işçilərin leqallaşdırılması daxil ola bilər. Qanun mətni Milli Assambleya və Senatın parlament qrupları ilə müzakirə ediləcək. "Milli Birlik" Barnye hökumətinə etimadsızlıq göstərməkdən imtina etməsini yeni immiqrasiya qanununun hazırlanmasından asılı edib. 2024-cü ilin yanvarında qüvvəyə minən son immiqrasiya qanunu kəskin müzakirələrin mövzusu olub. O vaxt nisbi çoxluğa malik olan Makronun partiyası qanunu ifrat sağçı "Milli Birliy"in bitərəf qalması sayəsində qəbul etdirə bilmişdi.

Beləliklə, Fransa miqrasiya problemlərini aqressiv və sərt addımlarla həll etməyə çalışır. Repressiv addımlarla insanları ölkədən çıxarmağa ümidlidir. Lakin bu, problemləri həll edə biləcəkmi? Görünən odur ki, bunu həyata keçirmək asan olmayacaq.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# "OĞLUMUN ARXASINCA ÖZÜM GETDİM..."

**Şəhid anası Lətafət Budaqova: "Atasının ili çıxmamış oğlum şəhid oldu. Gözümün ağı-qarası bircə balam idi. Vətən torpaqlarının azadlığı uğrunda şəhidlik zirvəsinə ucaldı. Təsəllim odur ki, Vətənin azadlığı üçün şəhid olub..."**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



"Oktyabrın 11-də 23 yaşı tamam oldu. Zəng elədi ki, ad günümdür. Dedim, gələrsən, qeyd edərik. Özümüz isə qohumlarla yığışıb qeyd elədik. Oktyabrın 27-də isə Yusif şəhid oldu..." - şəhidimiz Yusif Budaqovun anası Lətafət Budaqova oğlunun qəhrəmanlıq hekayəsini danışır. "Atasının ili çıxmamış oğlum şəhid oldu. Gözümün ağı-qarası bircə balam idi. Təsəllim odur ki, Vətənin azadlığı üçün şəhid olub...", - deyə ana kədər qarışıq qürurla dillənir...

## ONUN XƏTRİNİ HAMI İSTƏYİRDİ

Yusif Bakıdakı 132 saylı orta məktəbdə təhsil alıb. Anası xatırlayır: "Dərsini yaxşı oxuyurdu, amma bir az tənbəl idi. Evin tək uşağı olduğu üçün bir sözünü iki eləmirdik. O da bizə hörmət edirdi, sözümüzə qulaq asır, dəstək olurdu. Xasiyyəti ciddi idi, amma kövrək ürəyi vardı, yaxşılıq etməyi sevirdi. Yusif idmanı xoşlayırdı. Müəllimləri, sinif yoldaşları onun xətrini çox istəyirdilər. Kollecdə oxuyanda tələbələrin, hərbi xidmətdə olanda əsgər və komandirlərin, məhəllədə dost-tanışların, iş yerində yoldaşlarının hörmətini qazanmışdı".

Hərbi xidmətini başa vurandan sonra Yusif dizaynerlik peşəsi üzrə kolleci bitirir. Onda ailə Səbail rayonunda, Mehdi Hüseyn küçəsi, 51 ünvanda yaşayırdı. İndi həmin ünvanda Yusifin barelyefi vurulub: "Yusif evimizin yaxınlığında klinikada baş texnik kimi işə düzəldi. Sonra yoldaşım onkoloji xəstəliyə tutulanda puldan ötrü evimizi banka girov qoyduq. Ödəniş edə bilmədiyimiz üçün ev müsadirə olundu və biz kirayədə yaşamağa başladıq. Yusif hər şeyin yaxşı olacağını, yenidən ev də alacağımızı deyib bizə ürək-dirək verirdi". Y.Budaqov Vətən müharibəsi başlamamışdan ehtiyatda olan hərbi qulluqçu kimi hərbi təlimlərə cəlb olunub. Elə oradan da müharibəyə yollanıb...

## "TEZLİKLƏ ŞUŞA BİZİMDİR..."

Yusif cəbhə bölgəsində snayper-atıcı kimi hərbi xidmət keçmişdi. Əsgərliyi Aprel döyüşlərinə təsadüf etmişdi: "Yusif Aprel döyüşlərində iştirak etdiyi üçün qürur duyurdu. Bizə, dostlarına düşmənin qorxaqlığından danışır və deyirdi ki, əgər müharibə olsa, bir aya torpaqlarımızı düşməndən azad edəcəyik". Amma Aprel döyüşləri onun yaddaşında dərin yara buraxmışdı: yaxın dostu qucağında can vermişdi. "Yusifin döyüş yolu Füzulidən başladı. Daha sonra Cəbrayılın, Zəngilanın, Qubadlının azad olunması uğrunda döyüşlərin iştirakçısı oldu. Tez-tez telefonla danışırdıq", - deyə Lətafət ana bildirir: "Bir dəfə zəng vuranda, narahat olma, hər şey yaxşıdır. Tezliklə Şuşa bizimdir", - dedi. Yusifin narahatlığı təkcə mənə görə idi. Dostunun telefonuna göndərdiyi səs mesajında: "Müharibəyə kim getməlidir ki... Biz getməliyik. Vətəni oğullar qorumalıdır, qaçıb gizlənənlər, qorxaqlar bizdən deyil. Buna görə sevinirəm. Narahatlığım isə anama görədir. Təkdir, onun fikir etməsini, məndən ötrü nigaran qalmasını istəmirəm", - demişdi.

## "YUSİF BUDAQOV ŞƏHİD OLUB!"

Yusif sonuncu dəfə oktyabrın 13-də anasına zəng edib. Xocavəndin işğaldan azad olunması uğrunda döyüşlərə qatılmazdan öncə anası ilə əlaqə yaradıb "dualarını əsirgəmə" deyib: "Mən də gecə-gündüz bütün əsgər balalarımıza dua edirdim", - deyə ana danışır.

Xocavənd uğrunda döyüşlərdən sonra Lətafət ana oğlundan xəbər tuta bilməyib. Narahat ana Səbail rayon polis işçilərinin müşayiəti ilə Füzuliyə yollanıb: "Gördüm ki, Yusifdən xəbər yoxdur. Oğlumun arxasınca özüm getdim. İçimdə bir ümid vardı. "Əgər balam şəhid olsaydı, bu qara xəbəri məndən gizlətməzdilər. Yəqin Yusifim yaralıdır, gedib görəcəyəm ki, hospitaldadır, sağdır. Balamın yaralarını sarıyacağam, öpüb, oxşayacağam, birlikdə Bakıya qayıdacağıq", - deyə yol boyu düşünürdüm. Füzuliyə çatıb adını, soyadını söylədik, bir nəfər hərbi geyimli şəxs qarşısındakı dəftəri açan kimi "Yusif Budaqov şəhid olub" dedi.... Balamın nəşi morqda soyuducuda idi, üzünü açıb göstərdilər, güllə ürəyinə dəymişdi... Oktyabrın 30-da balamın cəsədini mənə təhvil verdilər. Oktyabrın 31-də Badamdar qəbiristanlığında dəfn elədik..."



## "KAŞ ÖZÜ GƏLƏYDİ..."

Lətafət ana indi tək yaşayır. Evlə də təmin olunub, dövlət sosial qayğılarına da dəstək olur. Rayon İH nümayəndələri, müxtəlif qurumların rəhbərləri anaya tez-tez baş çəkirlər. Lətafət ana yaşadığı evin divarlarını Yusifin fotoları ilə bəzəyib. İndi bu adi ev deyil, qəhrəman şəhidimizin muzeyidir. Uşaqlar, gənclər üçün and yeridir. Fotolarda Yusifin uşaqlıq, məktəb və kollec illəri, hərbi xidmət, iş dövrü, nəhayət, cəbhədə keçirdiyi günlər əbədiləşib. Üzügülər, xeyirxah baxışlı, cəsur görünüşlü bir gənc boylanır fotolardan. "İndi mənə bu şəkillər qalıb. Baxıram, söhbət edirəm, təsəlli tapıram. Oxuduğu orta məktəbdə böyük bir büstü qoyulub. Adına Badamdar qəsəbəsində küçə verilib, Hökmalıdə, atasının dəfn olunduğu qəsəbədə adına bulaq qurulub. Amma kaş özü gələydi..."

Yusif Budaqov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə rəşadətlə vuruşduğu üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. "Arzum budur ki, bir daha müharibə olmasın. Analar gözüyaşlı qalmasın", - deyir Lətifə ana: "Tez-tez şəhid anaları üçün təşkil edilən tədbirlərə dəvət alıram. Hamının kədəri birdir: oğul itirmişik... Amma hamımızın bir təsəllisi var: övladlarımız Vətən torpaqlarının azadlığı, balalarımızın azad və firavan yaşaması, ölkəmizin müstəqilliyi uğrunda canlarını qurban veriblər..."






# SIĞORTA ŞİRKƏTLƏRİNİN İKİLİ OYUNU




Sığorta şirkətlərinin onlayn sistemi vətəndaşlar üçün fəaliyyət göstərmir. Ekspertlərin fikrincə, şirkətlər bu addımı bilərəkdən atırlar ki, bəzi avtomobilləri sığortalamasınlar.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

“Sığorta şirkətləri onlayn sığorta sistemini bağlayıb, insanlar sistemə daxil olaraq avtomobillərini sığorta edə bilmirlər. Ancaq sığorta agentləri sistemə daxil ola bilirlər”.

Bu şikayət sosial şəbəkələrdə yazılıb. Vətəndaş avtomobilini sığorta etdirmək istəyir. Lakin ona təkbaşına bu prosesi həyata keçirməsi üçün şərait yaradılmır. Məcbur olur ki, sığorta agentlərinə müraciət etsin. Bu zaman agentə də əlavə ödəniş etməli olur. Bəs sığorta şirkətləri niyə belə edirlər?

**“ŞİRKƏTLƏR BU TİP MAŞINLARI SIĞORTALAMAQDAN QAÇIR”**

Sığorta eksperti İlkin Nəcəfovun sözlərinə görə, şirkətlərin bu cür oyunlara əl atmasının səbəbi avtomobillərin icbari sığortasındakı vəziyyətdir: “İcbari sığorta ilə bağlı durum ürəkaçan deyil. Şirkətlər ziyanla işləyir. Bu gedişlə bir çoxları icbari sığorta lisenziyalarından imtina edəcəklər. Çünki zərərləri, xüsusilə kiçik mühərrikli avtomobillərdə yüz faiz həddini keçir. Bu zərər şirkətləri maliyyə çatışmazlığı riski ilə üz-üzə qoyur. Bu səbəbdən şirkətlər maksimum halda çalışır ki, bu portfeldən kənarlaşsınlar. Taksi kimi işlədilən avtomobillərin, kiçik mühərrikli maşınların icbari sığortası şirkətləri ziyana salır. Ona görə də onlar bu tip nəqliyyat vasitələrini sığortalamaqdan qaçırlar”.

İ.Nəcəfov dedi ki, şirkətlərin atdığı bu addımlar keçicidir. Ən yaxşısı bu məsələlərin kökündən həll edilməsidir: “İcbari sığorta haqqında” qanununa əsasən, sığorta şirkətləri onlara yaxınlaşan heç bir müştəridən imtina edə bilməzlər. Buna görə də sığorta şirkətləri “ofisə gəlmək lazımdır”, yaxud “sistemdə nasazlıq var” deyərək müraciətlərdən yayınmağa çalışırlar. Amma bu, həll yolu deyil. Tənzimləyici qurumlar bu məsələni həll etməlidirlər. Çünki sığorta şirkətlərinin zərərləri artmaqda davam edir. Bu, bütövlükdə maliyyə bazarına təsirini göstərir. Burada şirkətləri də günahlandırmaq olmaz. Çünki onlar da qazanc əldə etməlidirlər. Çıxış yolu budur ki, ya avtomobillərin icbari sığortası məbləği artırılmalıdır, ya da bunu edə bilməyən şirkətlərin lisenziyaları alınmalıdır. Məsələn, bir sıra şirkətlər özləri lisenziyalarından imtina etdilər. Çox güman ki, yaxın zamanlarda digər şirkətlər də bu istiqamət üzrə lisenziya hüquqlarından imtina edəcəklər”.

**SIĞORTA AGENTLİKLƏRİNİN REKLAMI**

İqtisadçı Fuad İbrahimov da icbari sığorta sahəsində belə bir problemin mövcud olduğunu təsdiqlədi: “Bu problem həqiqətən də var. Sayt bağlı deyil. Vətəndaş daxil olur, bəndləri doldurur, lakin sona çatdıqda prosesi yekunlaşdıra bilmir. İnsanlar məcbur şəkildə işlərini sığorta agentləri ilə görməli olurlar. Bu, sığorta agentliklərinin reklamı üçün də ola bilər”.



İlkin Nəcəfov
Fuad İbrahimov
Vüsal Bədəlov

## “SIĞORTA MƏBLƏĞİNƏ YENİDƏN BAXILMALIDIR”

Sığorta Agentləri Assosiasiyasının təsisçisi Vüsal Bədəlovun fikrincə, bir müddət öncə avtomobillərin icbari sığorta haqları artırılsa da, bu, hazırkı dövr üçün yetərli deyil: “Sığorta şirkətləri iki ildir ki, aşağı mühərrikli nəqliyyat vasitələrini, sığorta haqqı aşağı olan, zərər riski daha çox olan avtomobilləri sığortalamaqda maraqlı deyillər. Buna səbəb sığorta haqlarının aşağı olmasıdır. 2022-ci il oktyabrın 1-də Mərkəzi Bankın qərarı ilə sığorta haqqının hesablanma qaydası dəyişdi. Lakin bu, müsbət nəticə vermədi. Sığorta haqqı az miqdarda yüksəlsə də, yenə şirkətlər icbari sığorta ilə bağlı zərərlə işləyirlər. Zərəri də kompensasiya etmək üçün çalışırlar ki, daha az riskli və sığorta haqqı daha çox olan avtomobilləri sığortalasınlar”.

V.Bədəlovun sözlərinə görə, əvvəllər sığorta şirkətləri vətəndaşı cəlb edirdi, indi əksinədir: “Düşünürəm ki, problemin həlli üçün sığorta haqqına yenidən baxılmalıdır. Çünki sığorta şirkəti qanunvericiliyin tələblərinə əsasən fəaliyyət göstərir. Qafqaz ölkələri arasında ən aşağı icbari sığorta haqqı bizim ölkəmizdədir. Vətəndaş sığorta əldə edib və şirkətin ödəməsini istəyir, bu, normaldır. Əgər şirkətin lisenziyası varsa, avtomobilin tipindən, mühərrikindən, sığorta haqqından asılı olmayaraq sığortalamalıdır. Sığorta şirkətləri əvvəllər özləri müştəri axtarırdı, indi tərsinədir”.



## HƏR ŞEY BAHALAŞIB, MƏBLƏĞ EYNİ QALIB

Ekspert bu istiqamətdə atılmalı olan addımları da sadaladı: “2011-ci ildən sığorta məbləği beş min manat təyin olunub. Əvvəlki dövrlərdə görürdük ki, çox nadir hallarda dəymiş zərər beş min manatı keçirdi. Amma indi avtomobillərin, ehtiyat hissələrinin bahalaşması nəticəsində kiçik bir hadisədə zərər beş min manat həddini keçir. Bu illər ərzində həm təmir xərcləri, həm də ehtiyat hissələri 3-4 dəfə bahalaşıb. Bu səbəbdən dəyişikliyə ehtiyac var. Taksilərlə bağlı xüsusi əmsal təyin edilməlidir. Çünki onların riski daha çoxdur. Amma ödədikləri sığorta məbləği adi maşınlarla eynidir. Bu dəyişikliklər olduqdan sonra hazırda yaşanan problemlər də tamamilə aradan qalxmış olacaq. Əgər bu məsələ tənzimlənməsə, bir neçə ildən sonra avtomobillərin icbari sığortası bazarında sığorta şirkəti qalmayacaq”.

SƏNƏT Kaspi 19 OKTYABR ŞƏNBƏ 2024 9

XALQ ARTİSTİ CƏFƏR NAMİQ KAMAL:"ƏVVƏLCƏ İNSANI YARADIRSAN, SONRA ONUN BAŞINA GƏLƏN HADİSƏLƏRİN İÇİNDƏN KEÇİRSƏN"

SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

# "BİR DƏ GÖRDÜLƏR REPERTUARDAYAM..."





Fotolar: Sabir Məmmədov
Global Media Group

"Məni Akademik Milli Dram Teatrına Həsənağa Turabov dəvət etmişdi. Burada bir az "dimdikləmək" vardı. Amma məni "dimdikləyə" bilmədilər, bir də gördülər repertuardayam".

Xalq artisti Cəfər Namiq Kamal gələn il 75 yaşını qeyd edəcək. Artıq 50 ildən çoxdur ki, peşəkar səhnədədir.

Akademik Milli Dram Teatrının tanınmış aktyoru "Kaspi"yə müsahibəsində sənətinin özünəməxsus sirlərini açdı.

## "TEATR EPİDEMİYA KİMİDİR"

● **Cəfər müəllim, teatrın səhnəsinə, kinonun pavilyonuna öyrəşənlər adətən tətilləri o qədər sevmirlər. Siz necə?**

● Bu fikirlə razıyam... Mən artıq 25 ildir ki, məzuniyyət vaxtı istirahət üçün Yessentukiyə gedirəm. Bir az dirçəlib gəlirəm. O müddətdə görmək istəmədiyim adamları görmürəm, problemlərdən uzaqlaşıram, beynim sakit olur. 11 ay işləməyə güc var artıq. Amma ora gedəndə bir həftədən sonra iş üçün darıxıram. Teatr epidemiya kimidir. Biz bu işi sevdiyimizə görə gəlmişik. Sevdiyin yerə də tez qayıtmaq, yenə də "dəli" dostlarınla "qazıntılar" aparmaq istəyirsən.

## "AKTYORLUQ ÖMÜR QISALDAN SƏNƏTDİR"

● **"Dəli" dostlar deyəndə obrazları nəzərdə tutursunuz?**

● Yox, onları nəzərdə tutmuram. Bizə əvvəllər bir qədər başqa cür yanaşırdılar. "Bunlar az maaşla necə işləyirlər, heç yerə getmirlər?" - deyə bizə dəli kimi baxırdılar. Biz də onların yanından qaçıb öz "dəli" dostlarımızın yanına gəlirdik ki, bir yerdə özümüzü daha rahat hiss edək. Düzdür, indi baxışlar bir qədər dəyişib. Bilirsinizmi, onlar bilmirlər axı aktyorluq nədir? Sən əsərdə verilən obrazın beynini düşüncəsindən tutmuş ürək döyüntüsünə kimi tapmalısan. Yəni, yeni insan təqdim etməlisən. Mən həmişə deyirəm: bir qurban olduğum yeni insan yaradır, bir də aktyor. Fərq odur ki, Tanrı insanı sıfırdan yaradır. Biz isə bəzən 60 yaşında insanın dərdini özəlləşdirib öz dərdimiz edirik. Aktyorluq ömür qısaldan sənətdir. Normal aktyor ayda 8-10 insanın dərdini içindən keçirir. Keçirməsən, zalda oturan tamaşaçı sənə inanmayacaq. Üzünə baxıb əsnəyə də, durub gedə də bilər... Bu, bir az qəliz sənətdir. Tamaşaçıya nə verirsən, onu da qəbul edir. Normal qida versən, teatrın qapısını sabah da, birisi gün də açacaq. Aktyorluq həm sənət baxımından çətindir, həm də gərək oturuşunu-duruşunu, səsinin tonunu biləsən. Digər tərəfdən, səninlə bağlı məlumatlar nə qədər örtülü qalsa, o qədər artıq söz-söhbətə yol açmaz. Yəni nə qədər gizlin olsan, o qədər sevimli olarsan.

## "TAMAŞAÇI GÜLÜRSƏ, BU, SAVABDIR"

● **Sonuncu dəfə "Xanuma" tamaşasında Knyazınıza baxmışam. Bu tamaşada "komik aktyor" ampluası daha çox üzdədir. Bilmirəm, haqqınızda bu fikir aktyorluq karyeranıza mane olur, yoxsa sizə kömək edir?**

● Komediya ən çətin janrdır. "Xanuma" da komediyadır. Bu tamaşada mənim improvizələrim çoxdur. Amma "amplua" sözünü xoşlamıram. Aktyora "insan mühəndisi" deyirlər. Yəni yeni insan hazırlaya bilir. O insan müxtəlif xarakterdə ola bilər. Məsələn, taxta işi ilə məşğul olan dülgər döşəmə də, pəncərə də, qapı da düzəldir. Aktyor da dərdli adamın da obrazını yaratmalıdır, ziyalının da, ağıldan kəmin də... İndiki zamanda komediya oynamaq da çətindir, ciddi dram da. Camaatın o qədər problemi var ki, komediyaya gələndə də üzləri gülmür. Toya gedirsən, heç kimin üzü gülmür. Yaxşı komediyada 10-15 dəqiqədən sonra donları açılır. Evdəki soyuducunun boş olmasını, borclarını yaddan çıxarır, saat yarım ərzində hər şeyi unudurlar. Tamaşaçı gülürsə, bu, savabdır. Ona görə həm güldürmək, həm də dərdə ortaq olmaq çətindir .

## MƏŞQDƏN ZÖVQ ALAN AKTYOR

● **"Azdrama"da bir neçə rejissorun quruluşunda tamaşalarda oynamısınız. Fərqli yanaşmalar və üslublar arasında keçid etmək çətindir?**

● Məşq prosesi bizə kömək edir. Mən buna "qazıntılar" deyirəm. İlk növbədə insanın xarakterini tapmalısan. Əvvəlcə insanı yaradırsan, sonra onun başına gələn hadisələrin içindən keçirsən. Bu baxımdan, bu sənətin tavanı yoxdur, öyrəndikcə qurtarmır. Hər rol alanda "görəsən, bu obrazı ərsəyə gətirə biləcəyəmmi?" - deyə düşünürsən. Mən məşqdən zövq alan aktyoram. Çünki yaradıcılıq, tapıntı məşqdə olmalıdır. Tamaşa vaxtı eləsən, bu, özfəaliyyətdir. İmprovizələri çox xoşlayıram. Məsələn, qəlbimdə hiss edirəm ki, bax, burada bu sözə ehtiyac var. Yarım dəqiqə tez və ya gec desən tutmayacaq, həmin anda istifadə etmək lazımdır. Onda da zaldakı 500 nəfər yaxşı mənada "partlayacaq".

## "PLANKA"NI QORUYUB SAXLAMAQ ÜÇÜN

● **Tez- tez müasir teatrdan, repertuar teatrının köhnəlməsindən danışırlar. Ənənəvi teatrı hər hansı təhlükə gözləyirmi?**

● Bura Akademik Milli Dram Teatrdır. Bu, təbliğat briqadası deyil ki, bu gün filan şey tələb olsun, onu verəsən. Əlbəttə, dövrün nəbzin tutmalısan. Məsələn, Qarabağ torpağı işğaldan azad olunub. Bu barədə tamaşa hazırlamasan günahdır. Amma "Bu gün poçt işçiləri və ya dənizçilər günüdür" deyə tamaşa hazırlamamalıyıq. Bu teatrın öz dəst-xətti var, onunla da gedir. "Planka" bu teatra layiq olmalıdır. Bəzi dövrlərdə bu "plankanı" elə aşağı salmışdılar ki, üzərindən atlanmaq lazım deyildi, elə üstündən keçib gedirdilər. Olimpiya yarışlarına iki metr hündürlüyə tullanan idmançını aparırlar ki, bundan da hündürə tullanıb çempion olsun. Sənət də elədir. Hər kəsin öz hündürlüyü var. Onu tullana bilənlər teatrda işləməlidir. Yoxsa bu akademik teatr yox, özfəaliyyət dərnəyi olar. Ona görə də bu teatra hansısa aktyoru və rejissoru dəvət edəndə fikirləşməlidirlər. Teatrın rəhbərliyi, bədii rəhbər həmişə bu "plankanı" yerində saxlamaq haqqında düşünməlidir.

*"Hər kəsin öz hündürlüyü var. Onu tullana bilənlər teatrda işləməlidir. Yoxsa bu akademik teatr yox, özfəaliyyət dərnəyi olar. Ona görə də bu teatra hansısa aktyoru və rejissoru dəvət edəndə fikirləşmə-lidirlər."*

● **Fikirlər var ki, Şekspirin "Dahi"si, Tolstoyun "Hərb və sülh"ü kimi qalın romanları oxumaq indi çoxuna maraqlı olmadığı kimi, uzun tamaşalara baxmağa da tamaşaçının hövsələsi yoxdur. Səhnə əsərləri daha qısa, daha lakonik, daha hərəkətli olmalıdır...**

● Bu, tamaşanın keyfiyyətindən asılıdır. Tamaşa var ki, tamaşaçını 3 saat da zalda saxlayar. Tamaşaçı heç bilməz bu vaxt haradan gəlib keçdi. Amma 45 dəqiqə ərzində oynanan tamaşa da var ki, tamaşaçı "nə vaxt qurtarar?" - deyə ayağını qaçaraq qoyur. Gərək tamaşaçını maraqlandıra biləsən. Belə bir şey var: tamaşaçıya silləni başlayan kimi tutuzdura bilməlisən. Bacarmasan, tamaşa get-gedə sönük olacaq. Tamaşaçı da çox duyğusal və tələbkardır. Ona münasibətdə suyu üfürə-üfürə içmək lazımdır. Artıq 55 ildir peşəkar səhnədəyəm. Elə vaxt olub xəstə gəlmişəm, temperaturum olub, dublyor olmadığından məcbur qalıb səhnəyə çıxmışam. Amma tamaşanı elə canlandırmışam ki, səhnədə də sağalmışam. Səhnə elə bil müalicəvi yerdir, səni xəstəlikdən çıxarır.

● **Siz kinolarda da çəkilmisiniz, serialda da. Özünüzü nə qədər kinoya aid hiss edirsiniz?**

● Gənc Tamaşaçılar Teatrında çalışanda Aktyorlar evində yerləşirdik. Bizim üçün bina tikirdilər. Tez-tez qastrollara gedirdik. Filmlər də o dövrdə çəkildi. Sonuncu çəkildiyim film Eldar Quliyevin "Dərvişin qeydləri" oldu.

● **Deyəsən, o filmi bəyənməmisiniz...**

● Filmi həm bəyənmədim, həm də səsləndirməsi xoşuma gəlmədi. Adətən aktyor deyən fikirləri rejissorlar qəbul edirlər. Mən teatrda da deyirəm, keçir də... Amma Eldar müəllim qəbul eləmirdi. Həm də səsləndirməni aktyor Sabir Məmmədova verdi. Mənim axı orada nəfəsim, hisslərim var. Bunu başqası mənim kimi edə bilərmi? Əlbəttə, yox... Bu kimi məsələlərə görə razı qalmadım.

## "OTURUB ƏRİZƏMİ YAZDIM, GÜCÜM ÖZÜMƏ ÇATDI..."

● **İnstitutda ixtisasdan dərs deyirdiniz. Tələbələrdə vaxtilə özünüzdə olan entuziazmı görmədiyiniz üçün auditoriyadan uzaqlaşdınız?**

● Mən dərs deməyə pula görə getmirdim. Cəmi 130 manat pul alırdım. Sadəcə, istəyirdim bildiyimdən öyrədim. Müşahidə etdim ki, tələbələr təsadüfən gəlirlər. Əvvəllər 300 nəfər sənəd verirdisə, kurs rəhbəri "güman var ki, 15 nəfərin içindən ikisi aktyor olsun" deyə özü seçirdi. İndi kimin balı uyğundursa aktyorluğa gəlir. Amma baxırsan ki, heç zahirən də uyğun gəlmirlər. Deyəndə ki, aktyorluğa uyğun deyilsiniz, biri deyirdi "atam məni başqa yerə düzəldəcək", biri deyirdi "dayım mənə başqa yerdə iş tapacaq". Mən də dedim ki, məşqdən icazə alıram, həşirlə gəlirəm, siz də oxumaq istəmirsiniz... Oturub ərizəmi yazdım, gücüm özümə çatdı...



## "MƏN HƏMİŞƏ ÖZ ROLUMUN REJİSSORU OLMUŞAM"

● **Özünüzü rejissor kimi sınamaq fikrinə düşməmisiniz?**

● Hər kəsin öz işi var. Mən həmişə öz rolumun rejissoru olmuşam. Bütün tamaşaya rejissor cavabdehdir. Rejissorlara da deyirəm: tamaşaya siz cavabdehsiniz, amma imkan verin, öz rolumun öhdəsindən gəlim. Əvvəlcə bu insanı yaradaq, sonra əlavələri deyərsiniz. Bəziləri də "filan rolu oynadım" deyir. Bu fikir düz deyil: domino, nərd oynayarlar. "Kağız üzərində quru yazılmış mətni canlandırdım, beyni işləyən, ürəyi döyünən insana çevirdim. Səhnəyə çıxarıb saat yarım gəzdirdim". Bu, daha məntiqlidir.

● **Qardaşınız İlham Namiq Kamalla aranızda hansı oxşarlığı və fərqi görürsünüz?**

● İlhamla lap uşaqlıqdan tərəf-müqabil olmuşuq. Dram Teatrında da 3-4 tamaşada tərəf-müqabil kimi səhnəyə çıxmışıq. İlham yaxşı tərəf-müqabildir, ayıqdır. Mənim də ayıq aktyorlardan xoşum gəlir. O, bir işi sona qədər çatdırmağı xoşlayır.

## 'MƏNİ "DİMDİKLƏYƏ" BİLMƏDİLƏR"

● **Heç yorulduğunuz və ya bezdiyiniz anlar olur? Məsələn, "artıq çıxıb getmək lazımdır", - deyə atıb hər şeyi getmək istəyirsiniz...**

● Yox, mən bu sənətdən zövq alıram. İşinə tələbat olmayanda adam özünü yararsız hesab edir. İstifadəsiz olmaq ölmək kimi bir şeydir, elə bil həyatda yoxsan. Şükür ki, mənə hələ tələbat var. Mən də çalışıram rejissorun üzünü ağ edim ki, "buna nə üçün rol verdim?" deməsin. Rollarımın hamısından razıyam, əksəriyyəti alınıb. Çünki can qoymuşam, elə-belə heç nə alınmır. Bu teatra gələn gündən bir də ayıldılar ki, repertuardayam. Məni Həsənağa Turabov dəvət etmişdi. Burada bir az "dimdikləmək" vardı. Amma məni "dimdikləyə" bilmədilər, bir də gördülər repertuardayam. Zəhmət çəkəndə də bəhrəsini görürsən.

● **Söhbətin əvvəlində gülüşün vacibliyindən danışdınız. Sizcə, gülüş həqiqətən ömrü uzadır? Bəs gülə bilməyəndə nə olsun?**

● Mənim rol aldığım komediyalarda hələ zaldan gülməyən adam çıxmayıb. Məndə incə gülüşdür, bayağı deyil. Şəxsən özüm də istərdim ki, 5-10 manat verim, iki saat güldürsünlər. Amma bu işi mən boynuma çəkmişəm...

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# SÜRÜRLƏR, ATIB GEDİRLƏR



Bəzən velosiped və skuterlər səkilərə, yol kənarına atılır. Ekspertlərin fikrincə, bununla bağlı nəzarət gücləndirilməli, həmçinin təşviqat və təbliğat işləri aparılmalıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Velosiped yollarının salınması və ondan istifadənin artması müsbət tərəfləri ilə yanaşı, özü ilə müəyyən problemlər də gətirir. İnsanlar bu vasitələri ya dayanacaqdan kənarda, ya da elə parklanma məntəqəsinin yaxınlığında səliqəsiz şəkildə atıb gedirlər. Nəticədə həm avtomobillərin hərəkətinə təhlükə yaranır, həm də piyadalara.

### DİGƏRLƏRİNƏ DƏ MANEƏ YARADIRIQ

Velosiped təlimçisi Səhər Mehman da belə hallarla tez-tez qarşılaşır. Onun sözlərinə görə, istifadəçilər tək özlərini yox, həm də digərlərini düşünməlidirlər: “Həm velosipedlərlə, həm də skuterlərlə bağlı belə vəziyyət mövcuddur. Bir çox hallarda istifadə edib necə gəldi atıb gedirlər. Bu hal insanların hərəkətinə də maneə törədir. Əlil arabasında olan şəxs, uşaq arabası ilə hərəkət edən xanım onu necə qaldırıb kənara qoysun? Bu vasitələr həyatımızı asanlaşdırmaq üçündür. Elə etmək lazımdır ki, bizim hər hansı hərəkətimiz digər insanlar üçün maneçilik yaratmasın”.

S.Mehmanın fikrincə, bu məsələ ilə bağlı nəzarət də, cərimə də mütləqdir: “Təklif edərdim ki, mikromobillik vasitəsini parklanma nöqtəsinə səliqəli şəkildə yerləşdirməyən vətəndaşın balansından müəyyən məbləğ çıxılsın. Belə olarsa, insanlar bu hərəkətləri etməkdən çəkinəcəklər”.

### “CİDDİ MAARİFLƏNDİRMƏYƏ, TƏBLİĞATA EHTİYAC VAR”

Nəqliyyat eksperti Rauf Ağamirzəyev isə düşünür ki, ölkəmizdə mikromobillik vasitələrinə kütləvi keçid yenidir: “Mikromobillik şəhər nəqliyyatında son aylarda ayrılmış velozolaq şəbəkəsindən sonra təsdiqini tapdı. Buna qədər isə velosiped və skuter yalnız Dənizkənarı Milli Parkın ərazisində əyləncə vasitəsi kimi istifadə olunurdu. Bu ildən başlayaraq velozolaq şəbəkəsi yaradılır. Bu da velosiped istifadəçilərinin sayının artmasına səbəb olacaq. Hazırda şəbəkə çəkilib, dayanacaqlar təşkil edilib, icarəçi şirkətlər varsa, düşünürəm ki, bu şəbəkə daha da genişlənəcək. Azərbaycanda velosiped ənənəsinin formalaşması üçün şərait yaradılmalıdır. Ciddi maarifləndirməyə, təbliğata ehtiyac var. Zolaqlara nəzarət də mütləqdir. Zolaq olmadan istifadəçi sayını artıra bilmərik. Mərhələli şəkildə artım olacaq. Kütləviləşdikdən sonra ehtiyac yaranarsa, bu zaman müəyyən tədbirlər görülməsi düşünülə bilər”.

### “40 MANAT CƏRİMƏ DEMƏKDİR”

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Mikromobillik şöbəsinin müdiri Coşqun Məmmədov bildirdi ki, əvvəllər qanunvericilikdə bununla bağlı hər hansı bir tələb mövcud deyildi. Amma artıq qanunvericilik tənzimlənib: “Burada bir çox məsələlər göstərilib. Kiçik elektrikli nəqliyyat vasitələrinin konkret parklanma yerləri olmalıdır. Yolun hərəkət hissəsinə, yaxud səkilərə tərk edilməməlidir.

Yol nişanlarına da diqqət etməlidirlər. Əgər buna əməl etməsələr, 40 manat cərimə deməkdir”.

C.Məmmədov AYNA tərəfindən görülən işlərdən də bəhs etdi: “Mikromobillik vasitələri AYNA tərəfindən müəyyən edilmiş yerlərdə parklanmalıdır. Operatorlar kiçik elektrikli nəqliyyat vasitələrinin dayanacaqda park edilməsinə nəzarət etməlidirlər. Bununla bağlı operatorlarla mütəmadi görüşlər keçirilib və onlar məlumatlandırılıb. Düzgün park edilməyən skuterlər həm piyadalar, həm də digər hərəkət iştirakçıları üçün təhlükə yaradır”.




## “VELOSİPEDLƏR ƏSASƏN SƏKİDƏ BURAXILIR”

Velosiped kirayəsi şirkətinin icraçı direktoru Əli Əhmədli baş verən bu kimi hallara aydınlıq gətirdi: “Velosipedlərin səkidə və digər dayanacaq olmayan ərazilərdə tərk edilib gedilməsi halları olur. Bəzən hansısa səbəbdən velosiped dayanacağa kimi gəlib çatmadan yolda qalır. Bu, bəzən istifadəçinin vəsaitinin, yaxud uzun müddət yol qət etdikdən sonra akkumulyatorun enerjisinin bitməsi nəticəsində baş verir. Velosipedlər, əsasən səkidə buraxılır. Yaxud, avtomobil yolunun ən sağ hissəsinə qoyulur. Ola bilir ki, velosipedlər dayanacaqda yolun kənarında saxlanılır. Yoldan keçən şəxslər tərəfindən kənara qoyula, həmçinin küləyin təsiri ilə aşa bilər. Bu zaman yol hissəsinə çıxması mümkündür”.

Ə.Əhmədlinin sözlərinə görə, velosipedlərə əməkdaşlar tərəfindən nəzarət olunur: “Ərazi operatorlarımız proqram ilə velosipedlərin faktiki dayandığı nöqtəni görürlər. Velosiped dayanacaqdan kənar bir yerdədirsə, o bizim əməkdaşlar tərəfindən dayanacağa aparılır. Elektrikli velosiped olduqda isə onun akkumulyatorunu dəyişirlər, texniki parametrlərinə baxırlar. Hər hansı bir texniki qüsur mövcud olmadıqda, velosiped digər müştərilərin istifadəsi üçün hazır olur. Hər məntəqə səliqəyə salındıqdan sonra əməkdaşlar məntəqədən fotolar çəkib göndərirlər”.

## MİKROMOBİLLİK VASİTƏLƏRİNƏ ZƏRƏR VURAN ŞƏXSLƏR CƏZALANDIRILIB

Direktor bildirdi ki, bəzən velosipedlər insanlar tərəfindən “vandalizmə” məruz qalır: “Hələlik onlara avtomobillər tərəfindən xəsarət halı qeydə alınmasa da, insanlar tərəfindən belə hallarla üzləşirik. Oturacaqların üzərini yandırmaq, velosipedin ekranını cızmaq, siqnalın oğurlanması, bəzi hissələrin qəsdən qırılaraq çıxarılması kimi hallarla qarşılaşmışıq. Parklanma nöqtələrimizin əksəriyyəti kamera nəzarəti olan yerlərdədir. Qanunvericiliyə əsasən, həmin şəxslər araşdırılıb və cəzalandırılıb. Hər bir hadisəni araşdırırıq və müəyyənləşdiririk ki, bu qəsdən edilib, yoxsa istifadə zamanı baş verən problemdir.



Əksər hallarda istifadə zamanı belə hallar olur. Bu da adətən velosipedi idarə edən istifadəçinin təcrübəsizliyindən irəli gəlir. Amma insanları da qınaya bilmərik. Çünki mikromobillik vasitələri hər kəs üçün yenidir. Təcrübə qazanmaq üçün ancaq sürərək öyrənə bilərlər. Bu müddət ərzində baş verə biləcək bütün problemləri normal qəbul edirik”.

Müsahibimiz gələcəkdə dayanacaqların, parklanma nöqtələrinin artırılmasını düşündüklərini dedi: “Ümid edirəm ki, gələn ilin mart-aprel aylarına qədər xidmət zonamızı indikindən üç dəfə daha böyük ərazidə reallaşdıracağıq. Buna həm dayanacaqların, həm də velosipedlərin sayının artması daxildir”.

# SU GƏLƏCƏYİ İLƏ BAĞLI BƏDBİN PROQNOZLAR

**Azərbaycan su resursları baxımından həssas ölkələr sırasındadır. Ölkənin su ehtiyatları Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə məhduddur. Lazımi addımlar atılmazsa, 2050-ci ilədək su resursları daha da azalacaq.**

SEVİNC ABBASOVA

Azərbaycanda su ehtiyatlarından səmərəli istifadə ilə bağlı yeni hədəflər müəyyən olunub. Bu istiqamətdə müvafiq işlər Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"ya əsasən həyata keçiriləcək. Sənədə görə, Bakı şəhərinin və ətraf ərazilərin içməli su təminatında duzsuzlaşdırılmış dəniz suyundan istifadəyə 2027-ci ilin sonunadək başlanılması planlaşdırılır.

Strategiyaya əsasən, eyni zamanda yüksək minerallaşmış yeraltı suların təmizlənməsi və istifadəyə cəlb edilməsi, su təminatında aktiv istifadə olunan kəhrizlərin sayının artırılması, kollektor, drenaj və tullantı sularının emalı və təkrar istifadəyə cəlb edilməsi, yağış sularının idarə olunması və istifadəyə cəlb olunması nəzərdə tutulur.

### TARİFLƏRƏ YENİDƏN BAXILACAQ

Yeni hədəflərə görə, Azərbaycanda su tariflərinin diferensiallaşdırılması da planlaşdırılır. Bu məqsədlə 2024-2027-ci illərdə müxtəlif istehlakçılar arasında sudan ödənişli istifadə üzrə tarif tənzimləmələrinin başa çatdırılması, tariflərin diferensiallaşdırılmasına keçidlə bağlı mexanizmlərin hazırlanması və tətbiqinə başlanılması nəzərdə tutulur. Bunun üçün "Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları"nın təkmilləşdirilməsi, sudan ödənişli istifadə üzrə tariflərə yenidən baxılması gözlənilir.

### SÜNİ YAĞIŞ TEXNOLOGİYASI

Su ehtiyatlarından səmərəli istifadəyə dair yeni hədəflər çərçivəsində Azərbaycanda süni yağış texnologiyası da sınaqdan keçiriləcək. İlkin olaraq bununla bağlı bir pilot layihənin icra olunması nəzərdə tutulur. 2024–2027-ci illərdə Elm və Təhsil Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinet birgə süni yağış texnologiyasının inkişafı ilə bağlı tədqiqatlar aparılmasını, müvafiq sahədə texniki-iqtisadi əsaslandırma və layihə sənədlərinin hazırlanmasını, pilot layihələrin müəyyən edilməsini, süni yağış texnologiyası ilə bağlı bir pilot layihənin icrasını təmin etməlidir.

Bəs, görəsən, yeni Strategiyadan gözləntilər nədən ibarətdir? Qarşıya qoyulan hədəflər su resurslarından daha səmərəli istifadə olunmasına imkan yaradacaqmı?

### 2050-Cİ İLƏDƏK SU RESURSLARI DAHA DA AZALACAQ

Mütəxəssislər hesab edirlər ki, Azərbaycan su resursları baxımından həssas ölkələr sırasındadır. Ölkənin su ehtiyatları Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə məhduddur və bütün regiondakı su ehtiyatının təxminən 15 faizini təşkil edir. Azərbaycanda adambaşına düşən su ehtiyatı da qonşu ölkələrlə müqayisədə ən aşağı səviyyədədir. BMT-nin İnkişaf Proqramının proqnozlarına görə, lazımı addımlar atılmazsa, 2050-ci ilədək su resursları daha da azalacaq. Bərpa olunan şirin su ehtiyatları 26,2 milyard kubmetrə çatır. Son 30 ildə ölkənin su ehtiyatı 20 faizə qədər azalıb və 2050-ci ilə qədər daha 15-20 faizə qədər azalacağı ehtimal edilir.





Rövşən Abbasov



Səid Səfərov

Foto: Firudin Səlimov/ Global Media Group

### SU İDARƏÇİLİYİNİ YENİ BİR VƏZİYYƏTƏ GƏTİRMƏLİYİK

Su məsələləri üzrə mütəxəssis Rövşən Abbasov bildirib ki, sözügedən sənədin təsdiq olunmasının çox ciddi səbəbləri var. Ekspert ölkənin su gələcəyi ilə bağlı bəzi bədbin proqnozların mövcud olduğunu deyib: "Proqnozlara əsasən, Azərbaycan gələcəkdə kəskin su stresi yaşayan ölkəyə çevrilə bilər. İqlim dəyişmələri, əhali sayının artması, ölkənin coğrafi vəziyyətinin uyğun olmaması su ehtiyatlarının azalmasına təsir göstərir. Sözügedən sənəddə sudan səmərəli istifadə edilməsinə dair yeni hədəflər və proqram müəyyən olunub. Su itkilərinin azaldılması, alternativ su mənbələrindən istifadənin artırılması, çaylardan və yeraltı su mənbələrindən götürülən suların mümkün qədər azaldılması, kənd təsərrüfatında sudan istifadəyə imkan verən müasir suvarma üsullarının tətbiqi, torpaq kanalların betonlaşdırılması və suya mümkün qədər qənaət olunması sənədin əsas qayəsini təşkil edir. Biz su idarəçiliyini yeni bir vəziyyətə gətirməliyik. Məhz belə olduğu təqdirdə, bizi gözləyən bədbin proqnozlardan yayına bilərik".

### BAKI SUSUZ QALA BİLƏR

Coğrafiya elmləri doktoru Səid Səfərov isə sözügedən sənəddə əsas diqqəti dəniz suyunun duzsuzlaşdırılması məsələsinə yönəldərək deyib ki, bu, strateji bir addımdır: "Bakı və Abşeron yarımadasına su kənardan gəlir. Yarımadada Azərbaycan əhalisinin çox hissəsinin yerləşdiyinə baxmayaraq, heç bir su ehtiyatı yoxdur. Hər hansısa bir konflikt baş verərsə, ciddi bir su problemi yaşaya bilərik. Bakı şəhəri susuz qala bilər. Ona görə də Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsi stratejidir və çox vacibdir. Lakin bu o demək deyil ki, bütün suyumuzu yığışdırıb, yalnız dəniz suyundan istifadə edək. Ehtiyatlardan mütləq ehtiyaca uyğun şəkildə istifadə etməliyik".

## DİFERENSİALLAŞDIRMA ZAMANI HƏSSAS QRUPLAR NƏZƏRƏ ALINACAQ

İqtisadçı-ekspert Emin Qəribli vurğulayıb ki, yeni strategiya müasir avadanlıqları, süni yağış kimi texnologiyaları Azərbaycanda sınaqdan keçirməyə imkan yaradacaq: "Gələcəkdə dünyanın bir neçə bölgəsinin kəskin su problemi ilə üzləşəcəyinə dair proqnozlar var. Həmin ölkələr sırasında Azərbaycanın da adı çəkilir. Düşünürəm ki, iqtisadi siyasətimizi məhz bunu nəzərə alaraq həyata keçirməliyik. İsrail kimi ölkələr uzun illərdir bu problemlə yaşayır, hətta kənd təsərrüfatı sahəsində də ixtisaslaşıblar. Burada əsas məsələ problemin həllinə yönəlik addımların düzgünlüyü və resursların ədalətli bölüşdürülməsidir".

Ekspert su tariflərinin diferensiallaşdırılması məsələsinə də toxunaraq deyib ki, bu istiqamətdə təsnifatlaşdırma mütləqdir. Onun sözlərinə görə, bununla bağlı qərar qəbul edilərkən əhalinin həssas qrupları nəzərə alınacaq: "Strategiyada qeyd olunub ki, xərclərə əsaslanan tariflərə mərhələli keçidlə bağlı regionlar müəyyənləşdiriləcək. Bunun çərçivəsində tariflərin diferensiallaşdırılması və ilkin olaraq pilot layihə kimi tətbiq olunması planlaşdırılır. Əgər pilot layihə effektiv olarsa, onun tətbiqinin davamlı genişləndirilməsi mümkün olacaq".



### "BÜTÜN SSENARİLƏRƏ HAZIR OLMALIYIQ"

Həmsöhbətimizin fikrincə, Azərbaycan su ehtiyatlarından səmərəli istifadə üzrə ixtisaslaşarsa, bu, gələcəkdə ölkəmiz üçün əlavə gəlirlər gətirə bilər: "Su çatışmazlığı riski təkcə Azərbaycanda deyil, bir çox ölkələrdə mövcuddur. Bizdə bu problem hələlik kəskin şəkildə özünü göstərmir. Ola bilsin ki, 10-15 il sonra bunu daha dərindən hiss edək. Ona görə də bütün ssenarilərə hazır olmalıyıq. Hökumət çalışır ki, problem dərinləşmədən qarşısını almaq mümkün olsun. Əgər nəzərdə tutulan tədbirlər çərçivəsində Azərbaycan su ehtiyatlarından səmərəli istifadə üzrə ixtisaslaşarsa, gələcəkdə əldə etdiyi təcrübə və bilikləri ixrac etməklə əlavə gəlir də edə bilər".



## SOCAR “Chevron”la əməkdaşlığı müzakirə edib

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə ABŞ-nin “Chevron” şirkəti arasında dekarbonizasiya, hasilat və nəql məsələləri müzakirə edilib. “Report” SOCAR-a istinadla xəbər verir ki, müzakirələr oktyabrın 16-da SOCAR prezidenti Rövşən Nəcəf ilə “Chevron” şirkətinin Avrasiya biznes bölməsinin idarəedici direktoru Derek Maqnes arasında keçirilən görüş zamanı baş tutub.

Tərəflər, həmçinin şirkətlər qarşılıqlı faydalı əlaqələrin möhkəmləndirilməsi istiqamətində əməkdaşlığın davam etdirilməsinə dair fikir mübadiləsi aparıblar.

# “BAKCELL” BMT-NİN QLOBAL SAZİŞİNƏ QOŞULUB

Klaus Müller: “BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun fəaliyyət strategiyamızın əsasını təşkil edir. Qlobal Sazişin 10 prinsipini tətbiq etməklə ekoloji, sosial və korporativ idarəetmə sahələrində fəaliyyətimizi daha da təkmilləşdirəcəyik”.




İnnovasiya və sürət lideri “Bakcell” BMT-nin Qlobal Sazişinə (United Nations Global Compact) qoşulub. Bununla bağlı “Bakcell”in baş icraçı direktoru Klaus Müller və BMT Qlobal Sazişinin Azərbaycan üzrə rəhbəri Samir Məmmədov arasında memorandum imzalanıb.

Klaus Müller bildirib ki, təşəbbüsə qoşulmaqla şirkət dayanıqlı inkişaf və sosial məsuliyyət prinsiplərinə sadiqliyini nümayiş etdirir: “BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun fəaliyyət strategiyamızın əsasını təşkil edir. Qlobal Sazişin 10 prinsipini tətbiq etməklə ekoloji, sosial və korporativ idarəetmə sahələrində fəaliyyətimizi daha da təkmilləşdirəcəyik”.

**DAYANIQLI GƏLƏCƏYƏ TÖHFƏ VERMƏK ÖHDƏLİYİ**

“BMT-nin Qlobal Sazişinə qoşulmaqla “Bakcell” dayanıqlı gələcəyə töhfə vermək öhdəliyini bir daha təsdiqləyir. Bu, hər kəs üçün daha yaxşı bir gələcək qurmaq məqsədilə ictimai bir vəddir - tərəfdaşlara, səhmdarlara, təchizatçılara, işçilərə, müştərilərə və gələcək nəsillərə verilmiş bir öhdəlik. “Bakcell” sözünə sadiq korporativ şirkət kimi tanınır. Texnologiya dayanıqlığın əsas təminatçılarından biridir və yenilikçi bir şirkət olaraq “Bakcell”, fərdlər, icmalar və sənayelər üçün daha yaxşı, məsuliyyətli və qayğıkeş həyat tərzi yaratmaq məqsədilə texnologiyanı əlçatan etməyə mühüm töhfə verəcək”, - deyə Samir Məmmədov bildirib.

**BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNDƏN GENİŞ İSTİFADƏ HƏDƏFLƏNİR**

Qeyd edək ki, “Bakcell” işğaldan azad olunmuş bölgələr də daxil olmaqla, ölkə ərazisində keçirdiyi müxtəlif innovativ layihələrlə iqtisadiyyatın inkişafına, Azərbaycanın dayanıqlı inkişaf hədəflərinə çatmasına töhfə verir. “Bakcell”in ətraf mühitin qorunması istiqamətində atdığı addımlar enerji istehlakı və elektron tullantıların ətraf mühitə təsirinin azaldılmasını, həmçinin bərpa olunan enerji mənbələrindən daha geniş şəkildə istifadəni hədəfləyir. Belə ki, şirkət eSIM texnologiyasının tətbiqi ilə plastik tullantıları azaldır, həmçinin bərpa olunan enerji ilə işləyən stansiyalarla bağlı pilot layihə həyata keçirir. Bundan əlavə, şirkət həyata keçirdiyi “FLEXcellence” proqramı vasitəsilə hibrid iş rejimini təşviq edir. Bu isə öz növbəsində əməkdaşların enerji və vaxt itkisini azaldır, onların iş və şəxsi həyatları arasında balansı təmin etməsinə kömək edir.

BMT-nin Qlobal Sazişi dünyada dayanıqlı inkişaf və sosial məsuliyyət sahəsində ən böyük beynəlxalq təşəbbüsdür. Hazırda Qlobal Sazişin iştirakçıları sırasında 160-dan çox ölkədən 20 mindən çox təşkilat yer alır. Təşəbbüs üzvlərinin əsas məqsədi öz strategiya və fəaliyyətlərini beynəlxalq səviyyədə qəbul edilmiş insan haqları, işçi hüquqları, ətraf mühitin qorunması ilə bağlı prinsiplərə və “Dayanıqlı inkişaf üzrə 2030 Gündəliyi”nə uyğunlaşdırmaqdır.

# “NAR” GƏNCƏDƏ TƏLƏBƏLƏR ÜÇÜN MOBİL RABİTƏ LABORATORİYASI TƏSİS ETDİ

Azərbaycanın bölgələrinə xüsusi diqqəti ilə seçilən ən sərfəli mobil operator “Nar” Gəncə şəhərində mobil rabitə laboratoriyası təsis edib. Laboratoriya Azərbaycan Texnologiya Universiteti ilə əməkdaşlıq çərçivəsində universitetin nəzdində yaradılıb.

Mobil rabitə laboratoriyası ATU-nun texniki peşələr üzrə təhsil alan tələbələrin mobil rabitə texnologiyalarını təcrübədə öyrənmələrini təmin edəcək. Eləcə də, tələbələrin işini asanlaşdırmaq üçün laboratoriya notbuk və digər zəruri avadanlıqlarla təchiz edilib.

Laboratoriyanın açılışı zamanı “Nar”ın (Azerfon MMC) baş icraçı direktoru Qunnar Panke bildirib: “Bu laboratoriya “Nar” olaraq, bölgələri diqqətdə saxlamağımızın növbəti nümunəsidir. Texnoloji tərəqqi ilə ayaqlaşan biznes olaraq,




bölgələrdə azərbaycanlı rabitə mütəxəssislərini yetişdirmək “Nar”ın ölkənin rabitə sahəsinə yatırımıdır”.

Azərbaycan Texnologiya Universitetinin rektor vəzifəsini müvəqqəti icra edən dosent Yaşar Ömərov “Nar”a təşəkkürünü bildirib: “Universitetimiz qarşısına əsl mütəxəssislər hazırlamağı hədəf qoyub və bu hədəfə nail olmaq üçün “Nar”ın öz zəngin təcrübəsini bizimlə paylaşmağı çox vacibdir. Özəl bizneslərin bu dəstəyi sayəsində tələbələrimiz universitetimizi ixtisaslarının peşəkarları olaraq bitirəcəklər”.

Qeyd edək ki, ölkədə yerli İT mütəxəssislərini hazırlamaq məqsədilə, mobil operator “Nar” Azərbaycan Texniki Universiteti (Bakı) və Azərbaycan Texnologiya Universiteti (Gəncə) ilə tərəfdaşlıq edir. Bu tərəfdaşlıq sayəsində artıq hər iki univeristetdə “Nar” mobil rabitə laboratoriyası fəaliyyət göstərir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Üç əsrin qəzeti Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2419
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ARTIQ ÖLKƏYƏ YARARSIZ, İSTİSMAR MÜDDƏTİNİ BAŞA VURAN AVTOMOBİLLƏR GƏTİRİLMİR

# SAY AZALIR, QiYMƏT ARTIR




Artıq ölkəyə yalnız yaşı az olan avtomobillər gətirildiyi üçün onların qiymətləri digərlərindən fərqlənir. Bu o deməkdir ki, ölkəyə yararsız, sınıq-salxaq, istismar müddətini başa vuran avtomobillər gətirilmir.

**AVTOMOBİL İDXALI**
**2024-cü il** yanvar-iyul

**944 mln $** Dəyər | Ədəd **51 179**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

## ÖLKƏYƏ GƏLƏN AVTOMOBİLLƏR 8-10 MİN MANATLIQ İDİSƏ...

Azərbaycan avtomobil idxalını 10 faiz azaldıb. Belə ki, bu ilin yanvar-iyul aylarında ölkəyə 944 milyon ABŞ dolları dəyərində 51 179 ədəd müxtəlif təyinatlı avtomobil idxal edilib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu avtomobillərin 11 276-ı daxili yanma mühərriklə yanaşı, elektrik mühərriklə də hərəkətə gətirilən nəqliyyat vasitələri, 1 792-i isə yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələridir.

Maraqlıdır, bu azalmanın səbəbi nədir? Bunu ölkədə avtomobillərə marağın azalması kimi qiymətləndirə bilərikmi?

"Azərbaycan Avtomobil Dilerləri Assosiasiyası" (AADA) İctimai Birliyinin icraçı direktoru Eyyub Əliyev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, idxal sayı azalsa da, idxal məbləğində artım müşahidə edilir: "Biz bunu birinci rübdə də müşahidə etdik. Ötən illə müqayisədə də avtomobillərin idxalının sayında azalma var idi. Amma bu məbləğə təsir etməmişdi. İdxal azalsa da, məbləğ artmışdı. Altı ayın yekununda da ölkəyə idxal olunan avtomobillərin sayında azalma var, amma məbləğ ötən illə müqayisədə artıb. Bu o deməkdir ki, ölkəyə artıq yararsız, sınıq-salxaq, istismar müddətini başa vuran avtomobillər gətirilmir. Bu, avtomobil parkımızın yenilənməsi istiqamətində atılan addımdır. Ümid edirəm ki, ölkəyə bundan sonra ikinci əl olduqda belə, sağlam avtomobillər gətiriləcək".

Az idxalla, artan məbləğin səbəblərinə gəldikdə, mütəxəssis vurğulayır ki, ölkəyə yeni avtomobillər gətirildiyi üçün onların qiymətləri digərlərindən fərqlənir: "Yaşı 10 ildən yuxarı avtomobillərin ölkəyə buraxılmaması, taksi fəaliyyətində də bu kimi avtomobillərə maraq olmaması, köhnə avtomobillərin idxalının qarşısını alır. Yeni avtomobillərin də qiymətləri digərləri ilə müqayisədə sözsüz ki, fərqlənir. Əvvəllər ölkəyə gələn avtomobillər 8-10 min manatlıq idisə, yeni buraxılış ili olan avtomobillər təbii olaraq, bu qiymətlərdən bahadır".



Eyyub Əliyev

Maraqlıdır, köhnə avtomobillərin ölkəyə buraxılmaması ölkədə avtomobil həvəskarlarının sayını azaldıbmı? Sualımızı cavablandıran direktorun sözlərinə görə, maraq nəinki azalıb, əksinə artıb: "Hətta ekoloji təmiz nəqliyyat vasitələri, elektromobillərə, hibrid avtomobillərə maraq gündən-günə artır. 2022 və 2023-cü ilin idxal statistikasına baxanda biz elektrik avtomobillərinin sayında 8-9 dəfə artım müşahidə etmişdik. 2024-cü ildə də artımın olacağını gözləyirik. Avtomobil almaq istəyən şəxslərə tövsiyə etmək istərdim ki, avtomobilləri rəsmi idxalçıdan alsınlar. Çünki onlar sizə zəmanət verir və ehtiyat hissələri problemi yaşamırsınız. Amma kənardan necə gəldi gətirilən avtomobillərlə həm parkımız köhnəlir, həm də özümüz maddi və vaxt baxımından ziyana düşürük".

### ARTIQ ALVERÇİLƏR DƏ BUNA RİAYƏT EDİRLƏR

Mütəxəssis vurğulayır ki, idxalın azalmasının avtomobil bazarında müsbət nəticələri var: "İstismar müddəti bitən, hansısa ölkədə utilizasiya edilən avtomobillərin ölkəyə gətirilməsi, satılması, bizim üçün mənfi hal idi. İndi dövlətin qoyduğu müəyyən tələblərdən sonra fərdi şəkildə avtomobil gətirənlər (alverçilər) də buna riayət edirlər, onların da gətirdiyi avtomobillər sağlamlaşmağa doğru gedir. Onlar da məcbur olub az idxal edir, amma sağlam avtomobil gətirirlər"

Nəqliyyat eksperti Yasin Mustafayev də təsdiqləyir ki, son vaxtlar ölkəyə gətirilən nəqliyyat vasitələrinin buraxılış ilinə qoyulan məhdudiyyətlər, elektrikli avtomobillərlə bağlı aparılan təşviqat, qurulan infrastruktur, taksi fəaliyyəti ilə bağlı məhdudiyyətlər idxala, qiymətlərə birbaşa təsir edir: "İdxalın azalması məhz bu səbəbdəndir. Əvvəllər buraxılış ilinə məhdudiyyət yox idi, istənilən yaşda olan nəqliyyat vasitəsi ölkəyə gətirilirdi, indi belə deyil. İkinci səbəb isə taksi fəaliyyətində istifadə olunan avtomobillərin istehsal tarixinin səkkiz ildən çox olmamasıdır. Bu da qiymətlərə və idxala təsir edir".



Yasin Mustafayev

### MƏQSƏD AVTOMOBİL PARKININ YENİLƏNMƏSİDİR

Ekspert bildirir ki, burada əsas məqsəd avtomobil parkının yenilənməsidir: "İndi ili köhnə olan avtomobillər bazarda çoxluq təşkil edir. Zaman keçdikcə onların sayı azalacaq və avtomobil parkı yenilənəcək. Hazırda istifadə olunan nəqliyyat vasitələrinin 10 faizi yenidir, qalanı isə köhnədir. Hətta buraxılış ili 10 ildən az olanlar da 20 faiz təşkil edir, 80 faizi köhnələrdir. Yeniliklərin tətbiqi idxalda sayı azaldır, avtomobilə düşən orta qiyməti isə artırır".

# DÜŞÜNDÜRƏN CƏRİMƏ ARTIMI

Ətraf mühitin çirkləndirilməsinə görə cərimələr dəfələrlə artırılır. Bu addımla bağlı fikirlər birmənalı deyil. Ekspertlərin bir qismi cərimə artımlarını dəstəkləsələr də, digər qisim təbliğatın tərəfdarıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılmasına görə cərimə artırılır. Bununla bağlı qanunvericilikdə dəyişikliklər nəzərdə tutulur. Layihəyə əsasən, məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılmasına görə fiziki şəxslər üç yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər dörd min manat məbləğində cərimə ediləcək. Eyni əməl bir il ərzində təkrar törədildikdə, fiziki şəxslər min manat, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir. Yaxud, işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, altmış saatdan yüz saatadək ictimai işlər tətbiq olunur, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

Tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə də cərimənin məbləği artırılır - 50 manatdan 300 manata qaldırılır. Eyni hərəkət bir il ərzində təkrar törədildikdə 700 manat cərimələnəcəksiniz. Avtomobildən bayıra hər hansı əşya, tullantı atılmasına görə də 200 manatdan 4 000 manatadək cərimə tətbiq olunacaq.

Bəs cərimələrin artırılması bu sahədə nizamın yaradılması üçün kifayətdirmi?

### “CƏRİMƏLƏRİN BELƏ SÜRƏTLƏ QALDIRILMASI OLMAYIB”

Sabiq millət vəkili Rüfət Quliyevin sözlərinə görə, bu kimi ictimai hərəkətlərə görə yüksək məbləğli cərimələr bütün dünyada tətbiq edilir: “Bu vaxta qədər cərimələrin belə sürətlə qaldırılması olmayıb. Amma bu, praktiki olaraq bir çox ölkələrdə mövcuddur. Hətta qanunla qoyulan qaydaları yerinə yetirmədikdə daha yüksək formada cərimələr də tətbiq oluna bilir. Bunu ilk tətbiq edən ölkə biz deyilik. Məsələn, Sinqapurda saqqızı yerə atmağa görə bir neçə yüz Sinqapur dolları cərimə tətbiq edilir. Hər bir ölkədə bu və ya digər formada qadağalar mövcuddur”.

R.Quliyev düşünür ki, yeni qərar ətraf mühitin təmizliyində əhəmiyyətli rol oynayacaq: “Cərimələr çox şiddətli şəkildə qaldırılsa da, başqa yolumuz yoxdur. Çünki şəhərin təmizliyi, ekologiyası çox vacibdir. Ölkəmizdə zibil qabından kənara zibil atan insanlara qarşı müxtəlif nalayiq ifadələr yazılırdı. Bu, ictimai qınaqdır. Amma dövlət tərəfindən də addımlar atılmalı idi. Hazırda bu, reallaşır. Nəzarət çox vacibdir. Zibil qabları artıq müasirdir. Bir çoxunda şüşə, plastik və sair ayrılıb. İnfrastruktur qurulub. Onu daha da təkmilləşdirmək olar. Amma buna tam nəzarət mümkün deyil. Hər poliqonun qarşısına kamera qoymaq çətindir. Hər bir halda düşünürəm ki, bu qərar insanları ətrafı çirkləndirməkdən yayındıracaq”.

### “BU, VƏTƏNDAŞIN MƏSULİYYƏTİNDƏ DEYİL”

Onun fikrincə, qurumların üzərinə də burada ciddi iş düşür: “Onlar zibilləri vaxtında yığışdırmalıdırlar. Əgər zibil qabları dolu olarsa, bu zaman insanlar məcburən zibili yerə atmalıdır. Yaxud məişət tullantısı dolu konteynerdən yerə düşərsə, bu, vətəndaşın məsuliyyətində deyil. Burada insanların da üzərinə iş düşür. Onlar da gördükdə ki, zibillər daşınmır, anti-sanitar vəziyyətdir, bu zaman şəkillərini çəkib icra hakimiyyəti orqanlarına müraciət etsinlər. Onlar da həmin əraziləri təmizləməlidir”.

## “İNSANLARA AŞILAMAQ LAZIMDIR Kİ, GÖRÜLMƏYƏN YERLƏRDƏ DƏ BUNU ETMƏSİNLƏR”




Ekoloq Qorxmaz İbrahimli düşünür ki, cərimələrdənsə, bu qaydalar insanlara aşılanmalı və təbliğ olunmalıdır: “Cərimələrin bu qədər yüksəldilməsini doğru hesab etmirəm. Çünki ola bilər ki, vətəndaş bilmədən bunu etsin. Bunu cərimədənsə, təbliğatla həyata keçirsək daha yaxşı olar. Qaydalar uşaqlara bağçadan başlayaraq, daha sonra məktəbdə öyrədilməlidir. Davranış qaydaları hər bir vətəndaş üçün önəmlidir. Uşaqlar da valideynlərində o hərəkəti görsə, onu tənbeh edəcək. İnsanlar da belə hərəkət edənləri görəndə tənbeh etməlidir. İctimai qınaq olmalıdır. Ola bilər ki, insan bu qaydaları bilmir. Polislərin yaxınlaşıb xəbərdarlıq etməsi, tənbeh etməsi daha doğru olar. Çünki bu hərəkətlər yalnız görüldükdə cərimələnəcək. Amma insanlara aşılamaq lazımdır ki, görülməyən yerlərdə də bunu etməsinlər. Bu mədəniyyəti formalaşdırmalıyıq”.

### ƏKS-EFFEKT VERƏ BİLƏR

Sosioloq Mail Yaqubun fikrincə isə, cərimələr vacibdir. Lakin birdən-birə bu qədər yüksəldilməsi əks-effektə səbəb olar: “Cərimələrin artırılması ictimai qaydaların tənzimlənməsinə böyük töhfə verir. Bu, bütün dünyada belədir. Lakin cərimələrin məbləği əhalinin sosial vəziyyətinə uyğun tənzimlənməlidir. Əhalinin minimum əməkhaqqısı nə qədərdirsə, cərimələr də ona uyğun olmalıdır. Əks təqdirdə ciddi narazılıqlara səbəb olar”.





“İblis” pyesinin motivləri əsasında Mehriban Ələkbərzadənin quruluşunda yenidən həyat qazanan “İblis və...” Azərbaycan teatr tarixi üçün yeni hadisə idi. Tamaşa klassika və müasirliyin uğurlu sintezi kimi də dəyərləndirilə bilər.

# “İBLİS VƏ...”NİN PREMYERASINDAN QEYDLƏR

Bu günlərdə “İblis və..” tamaşasının premyerası oldu. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində tüğyan edən “İblis”in ilk fırtınası Sankt-Peterburqda Aleksandrinski Teatrında görünmüşdü. Rusiyada tamaşa böyük əks-sədaya səbəb olmuşdu. Hüseyn Cavidin “İblis” əsəri əsasında səhnəyə qoyulan tamaşa ilk dəfə 1920-ci il dekabrın 21-də Azərbaycan Dövlət Teatrında (İndiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında) səhnələşdirilib və bu, Azərbaycanın teatr həyatı üçün böyük hadisə idi.

### CAVİDİN “İBLİS”İ BÜTÜN “İBLİS”LƏRİN FÖVQÜNDƏDİR

Avropa fəlsəfəsini, mədəniyyətini, həmçinin yunan mifologiyasını yaxşı bilən Hüseyn Cavidin “İblis”i ona qədər və ondan sonra yaradılan bütün İblis obrazların fövqündə dayanır, desək, yəqin ki, yanılmarıq. Çünki onun “İblis”i fövqəlbəşərdir, dağıdıcı, qəddar, dondan-dona girən, daha hiyləgər və məqsədinə çatmaq üçün hər cür mənfur vasitədən istifadə edən məxluqdur. Onun zərrə qədər rəhmi yoxdur. Cavid əsər boyu insan xarakterinin hər iki tərəfini - mərhəmət və qəddarlığını müqayisəli şəkildə qələmə alıb. Bu cür əsərin səhnələşdirilməsi, əlbəttə ki, rejissordan böyük məharət, ustalıq, Cavid yaradıcılığına və ruhuna, həmçinin insan psixologiyasına bələdlik tələb edir. Əməkdar incəsənət xadimi, dövlət mükafatı laureatı Mehriban Ələkbərzadə də bunun öhdəsindən artıqlaması ilə gəlib.

Bu gün də “İblis” pyesinin motivləri əsasında Mehriban Ələkbərzadənin quruluşunda yenidən həyat qazanan “İblis və...” fəlsəfi-dekonstruktiv metadramı Azərbaycan teatr tarixi üçün yeni hadisə idi. “İblis və...” tamaşası klassika və müasirliyin uğurlu sintezidir. Bu sintezlə İblis və ətrafındakıların gərgin mübarizəsi parlaq tonlarla təzahürünü tapa bilib.

### “İBLİS” VƏ “ARİF” OBRAZLARININ DİNAMİKASI

İblis obrazının ifaçısı hamımıza “Bəxt üzüyü”ndən yaxşı tanış olan Ayşad Məmmədov idi (dublyoru Anar Heybətov). Aktyorun rolun uğurlu alınması üçün sərf etdiyi enerji tamaşaçı zalının ən uzaq yerlərində belə hiss edilirdi. Əhvalına, çatdırdığı mesaja uyğun səs tonu və mimikalarının dəyişməsi əla idi. O ki qaldı Mehriban xanımın göstərdiyi “İblis”lə Cavidin “İblis”inin fərqinə, tamaşadakı iblis daha qəddar, daha məkrli, müasir idi.

Arifi canlandıran Murad İsmayıl idi ki, xüsusilə bu rol üçün Akademik Rus Dram Teatrından dəvət almışdı. “Əli və Nino”da Əli, “Aydın”da Dövlət bəy obrazlarını böyük məharətlə ərsəyə gətirən, qısa müddətdə tamaşaya qoşulan aktyorun əziyyəti nəticəsiz qalmayıb. Murad 11 məşqə Arifin ruhunu, psixoloji gərginliyi, mübarizəni maksimum ötürə bilib. Qeyd edək ki, aktyor “Müsyo İbrahim və Quran çiçəyi”ndə Fuad Poladovla oynadığı son roldan sonra ilk dəfə yeddi ildən sonra “Azdrama”nın səhnəsində görünürdü.

### “RƏNA”, “ELXAN” VƏ “XAVƏR”İN FƏRQLİ PERFORMANSI

“Rəna” obrazını da qeyd etmək yerinə düşər. Obrazı Vəfa Zeynalova canlandırıb. Onun geyimi xüsusilə diqqəti çəkirdi. Bu, Rəna da orijinaldakı türk şəfqət həmşirəsi Rənadan yaxşı mənada, çox fərqlənir. Sanki daha dəli-dolu, atasının qatilini tapmaqdan ötrü özünü oda vuran, gözündə qorxu olmayan bir xanımdır. Enerjili və bugünkü cəmiyyətə daha uyğun xarakterdir.

Elşən Rüstəmovun Elxanı da təqdirəlayiqdir. Aktyor möhtəşəm performansını bu obraz üzərində də peşəkarcasına tətbiq edib. Səs tonu, hərəkətləri, səhnəni və tamaşaçını tam ələ alaraq hiss etməsi təkrarsız idi.

Gənclərdən Lalə Süleymanovanın yaratdığı Xavərin səhnədəki plastikası, çevikliyi, tərəf müqabilini son dərəcə həssaslıqla hiss etməsi də nəzərdən qaçmır.



### İŞIQ, SƏS VƏ ALQIŞLAR...

Tamaşanın dekorunda, işıqlarında və aktyorların geyimlərində qara, ağ və qırmızı rənglər üstünlük təşkil edirdi. Məlumdur ki, qara soyuq, qəmli rəng hesab olunur və ağ rəngin, aydınlığın, işıq rəmzinin tam əksidir. Qırmızı həyat rəngidir. Eyni zamanda fəallıq, enerji, dinamizm, güc, mətanət, əzm, həmçinin məhəbbət, ehtiras və qəzəb rəmzidir. Hüseyn Cavidin “İblis”i də məhz bütün bunların cəmidir ki, səhnədə də həmin rəngli işıqların vəhdəti vasitəsilə aktyor oyunu və rejissor quruluşunun üstündə sanki bir qüvvətverici amildir.



Tamaşanın musiqisi də qeyd olunmalıdır. Milli ruhda olan musiqilər, xüsusilə də tarın heyrətamiz ifası sanki səhnələri tamamlayır.

Tamaşa uğurlu alınıb, desək, yanılmarıq. Ümumiyyətlə, Mehriban xanımın hər işi yaxşı mənada təəccübləndirir və teatr səhnəmizin əmin əllərdə olduğuna inandırır. Mehriban xanım rejissor olaraq insan psixologiyasına, təbiətinə yaxşı bələddir və onu aktyor vasitəsilə tam enerji ilə peşəkarcasına ötürə bilir.

Tamaşanın sonunda səslənən alqışlar da onun necə alınmasından xəbər verir. Təzimə çıxan aktyor heyəti və rejissor xanımın şərəfinə təşəkkür üçün ayağa qalxan tamaşaçıların nə alqışları bitdi, nə də gül çələnglərinin ardı-arası kəsildi.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
19 OKTYABR ŞƏNBƏ 2024




# MONTELLALI TÜRKİYƏ YIĞMASININ İLKLƏRİ

**Qarşıda Türkiyə yığmasını daha ciddi sınaq gözləyir. 2025-ci ilin martında 2026-cı il dünya çempionatının seçmə mərhələsi start götürəcək. 2002-ci ildə dünya üçüncüsü olan Türkiyə millisi həmin zamandan heç bir mundiala vəsiqə qazana bilməyib.**

Futbol üzrə Türkiyə millisi Avropa çempionatından sonra uğurlu çıxışını davam etdirir. "Ay-ulduzlu" yığma UEFA Millətlər Liqasının C Liqasının dördüncü qrupunda məğlubiyyətsiz irəliləyir. Dörd turda üç qələbə əldə edən və bir dəfə heç-heçəyə razılaşan komanda 10 xalla vahid liderdir. İtalyan Vinçentso Montellanın rəhbərlik etdiyi kollektiv ən yaxın izləyicisi Uelsi iki xal üstələyir və qrup lideri olmağa çox yaxındır. İslandiyanı 3:1 və 4:2, Monteneqronu 1:0 məğlub edən Türkiyə səfərdə Uelslə heç-heçə edib. Komanda buraxdığı üç qola səkkizi ilə cavab verib.

## KEYFİYYƏTLİ VƏ FORMADA OLAN HEYƏT

Türkiyə millisinin heyətinin də yaxşı nəticələr üçün uyğun keyfiyyətə sahib olduğu qeyd edilməlidir. Komandanın əksər üzvləri Avropanın tanınmış klublarında əsas heyət üzvüdürlər.

Hakan Çalhanoğlu son illərdə qitənin ən güclülərindən olan "İnter"in əsas liderlərindən hesab olunur. Kenan Yıldız bu mövsümdən "Yuventus"un əvəzedilməz oyunçularındandır və ona 10 nömrəli formanın verilməsi də Turin təmsilçisinin gənc oyunçuya inamının götəricisidir. Türkiyə futbolunun əsas ulduzu hesab edilən Arda Güler ötən mövsümlə müqayisədə artıq "Real Madrid"də daha çox şans qazanır və oynadığı müddət ərzində effektivliyi ilə diqqət çəkir. Zeki Çelik "Roma"da stabil çıxış edir. Bu yay "Brayton"a transfer olunan Ferdi Kadıoğlu artıq heyətdə yerini tapmaqdadır. Kerem Aktürkoğlu isə "Benfika"ya transferindən dərhal sonra diqqətləri üzərinə çəkə bilib. Hər oyun qol və ya assistlə yadda qalmağı bacaran vinger azarkeşlərin sevimlisinə çevrilib. Onunla eyni komandada çıxış edən Orkun Kökçü də əsas fiqurlardandır. Vinçentso Montella potensialı yüksək olan heyətdən yaxşı yararlanmağı bacarır. Son illərdə Türkiyə futbolunda əsas problem məhz məşqçilərin oyunçulardan maksimumu ala bilməməsi idi. Görünür, komandada bu çatışmazlıq məhz Montellanın sayəsində aradan qalxıb. İndi Türkiyə millisi daha əzəmli çıxış edir, baxımlı futbol göstərir, istənilən rəqibə öz oyununu diktə etməyə çalışır və bu, nəticəsini verməkdədir.

## Uğurlu çıxışın əsas siması

Türkiyə yığmasının uğurlu çıxışında əsas amillərdən biri baş məşqçidir. Vinçentso Montella bu posta keçən ilin sentyabrında gətirildi. Ölkəsində "Roma", "Milan", "Fiorentina"nı çalışdıran mütəxəssis qonşu ölkəyə də yad deyildi. O, Türkiyədə "Adana Demirspor"un baş məşqçisi olmuş və işi ilə rəğbət qazanmışdı. "Ay-ulduzlu" yığma 50 yaşlı məşqçinin rəhbərliyi altında 17 oyuna çıxıb və bunların doqquzunda qələbə qazanıb. Beş məğlubiyyətdən isə cəmi ikisi rəsmi oyunlarda qeydə alınıb. Həmin qarşılaşmalarda komanda Niderland və Portuqaliya kimi güclü rəqiblərə yenilib.

Montellanın rəhbərliyi altında Türkiyə yığması bir sıra ilklərə imza atıb. "Ay-ulduzlular" AVRO-2024-ün seçmə mərhələsini qrup lideri kimi başa vuraraq final mərhələsinə vəsiqə qazanıblar. Bununla da Türkiyə ilk dəfə bir böyük turnirə qrup lideri kimi getmək haqqı qazanıb. Montella komandanı nüfuzlu turnirin final mərhələsinə yüksəldən ilk qeyri-türk mütəxəssis olmaqla yanaşı, komandanı 1/4 finala yüksəltmək uğuruna da imza atıb. Üstəlik, Türkiyə Avropa çempionatında ilk dəfə üç qələbə qazanmağı bacarıb. Ümumiyyətlə, AVRO-2024-də beş oyun keçirən komanda bunların cəmi birində məğlub olub. Türkiyə Montellanın öndərliyində bir sıra uğursuz seriyaya da son qoyub. Kollektiv bir neçə gün əvvəl tarixində ilk dəfə İslandiyanı səfərdə məğlub edib. Komanda buna qədər Şimali Avropa ölkəsində çıxdığı yeddi oyunun altısında məğlub olmuşdu. Almaniya üzərində 72 il sonra əldə edilən səfər qələbəsi, Latviyaya qarşı ilk ev qalibiyyətini də buraya aid etmək olar.

## Qarşıda nə var?



Türkiyə yığmasının Millətlər Liqasında qrup qalibi olması demək olar ki, şübhə doğurmur. Futbol sürprizlərə açıq olsa da, hazırkı Uels millisinin "ay-ulduzlular"ı geridə qoyması inandırıcı görünmür. Qarşıda isə Türkiyə yığmasını daha ciddi sınaq gözləyir. 2025-ci ilin martında 2026-cı il dünya çempionatının seçmə mərhələsi start götürəcək. 2002-ci ildə dünya üçüncüsü olan Türkiyə millisi həmin zamandan heç bir mundiala vəsiqə qazana bilməyib. Azarkeşlər Montellanın rəhbərliyi altında hazırkı yığmanın bu həsrətə də son qoyacağına inanırlar. Türkiyə millisi bunun üçün bütün resurslara sahibdir.

Bəzən həm baş məşqçi, həm də futbolçulara yönələn tənqidlər olsa da, əksər azarkeşlər hazırda komandanın çox yaxşı çıxış etdiyi fikrində həmrəydirlər. Hazırkı heyətin əksər üzvləri gənc yaşdadırlar və onlar uzun illər formanı geyinməyə namizəddirlər. Qarşıdakı bir neçə böyük turnirdə Türkiyə yığmasından uğurlu çıxış gözləməyə dəyər.